# GURULTULU MƏHƏBBƏT

Iki hissəli komediya

İştirak edirlər:

*Mərdan* –Kommunal təsərrüfat idarəsinin müdiri

*Bəsirə* - onun arvadı, müəllimə

*Şəlalə* - Bəsirənin qızı, bağça müdirəsi

*İsrafil* – gənc jurnalist

*Kamal* – İsrafilin dayısı, həvəskar aktyor

*Nemət* – İsrafilin əmisi, neftçi

*Mürsəl* – İsrafilin qohumu, inşaat ustası

*Dadaş* – Kamalın dostu, fotoqraf

*Cahan* – Dadaşın bibisi

*Laləzar* – şəhərli qız

*Həsən* – Mərdanın qardaşı oğlu, klub müdiri.

## BİRİNCİ HİSSƏ

## Birinci şəkil

Mərdanın evi. Ortada stol, ətrafında kreslolar düzülmüşdür.

M ə r d a n *(gəlir. O, yuxudan təzə durmuşdur).* Sənin kimi mərdüməzarın evi dağılaydı, ay jurnalist Kələntərzadə! Məni görən yerdə gözlərin kor olaydı! Ax!.. Ax!.. Ax!.. De görüm, o felyetonu yazıb məni abırdan salmaqda cibinə nə girdi, hə? Ax!.. Hər şey əlimdən çıxacaq! Keçəydin girimə, yıxardım səni altıma, o ki, var əzişdirərdim.

B ə s i r ə gəlir.

B ə s i r ə. Öz-özünə niyə danışırsan, ay kişi?

M ə r d a n. İndicə yenə o jurnalist şeytan timsalında yuxuma girmişdi. Elə şirin yatmışdım ki... Eh!.. Bütün təqsirlər o jurnalistdə oldu!

B ə s i r ə Jurnalistin nə günahı? İspalkomla əlbir olub dövlətin uşaq bağçası tikdirməyə buraxdığı pulları yemisiz...

M ə r d a n Bəsdir! Sus!

B ə s i r ə Tifillər yenə köhnə, uçuq binada qalacaqlar. Sabah qışda soyuqdan tir-tir əsəcəklər. Onu bil ki, səni də gec-tez o ispalkom kimi işdən qovacaqlar.......

M ə r d a n. Bəsirə, mənim işlərimə qarışma! Müəlliməsən, get colma-cocuqlara dərsini de! Onların tərbiyəsilə məşğul ol. Mənim başıma ağıl qoyma! *(Çıxmaq istəyir.)*

B ə s i rə. Yaxşı. Məşədi İbad kimi özündən çıxma, hirslənməyin elə bu günə qalmışdı? Keç paltarını dəyiş. Adam göndərmişəm Həsəni də çağırsınlar... Bir azdan qıza elçilər gələcək.

M ə r d a n.Elçilər?

B ə s i r ə. Bakıdan bir dəstə adam gəlib, mehmanxanaya düşüb. Ertədən zəng çalmışdılar.

M ə r d a n. Kimdir qızı istəyən?

B ə s i r ə. Bir tələbədir. Eşitmişəm çox tərbiyəli oğlandır.

M ə r d a n. Şəlaləni hardan tanıyır?

B ə s i r ə. Qız Bakıda oxuyanda tanış olublar.

M ə r d a n. Tələbə... Heç onu fikirləşirsənmi tələbənin ağız-burnunu düzəldib adam arasına çıxmasına neçə il vaxt lazımdır? Onun tərbiyəsi mənim nəyimə gərəkdir! Qızı öz xoşuna buraxarsan, ya halvaçıya gedər, ya da zurnaçıya. *(Yan otağa keçir.)*

B ə s i r ə. Eh!.. Mərdan! Mərdan! Əməllərinə görə xəcalətdən adam arasına çıxa bilmirəm.

Ş ə l a l ə gəlir.

Ş ə l a l ə. Anacan gözümə bikef görünürsən?

B ə s i r ə. Yox, qızım... Mənə sözün vardımı?

Ş ə l a l ə. Bəli, sənə onu demək istəyirəm ki...

Mənə elçi göndərən
Sədaqətli oğlandır.
Sözündə mərd –mərdanə,
Cəsarətli oğlandır.
İnan mənə, anacan,
Ləyaqətli oğlandır.
Ürəyi tər-təmizdir,
Sevgisi bir dənizdir.
Canım qədər əzizdir,
Dəyanətli oğlandır.
İnan mənə, anacan,
Ləyaqətli oğlandır.
Bu gün gəlir elçilər,
Razı olsan sən əgər,
Görərsən ki, nə qədər
Nəzakətli oğlandır.
İnan mənə, anacan,
Ləyaqətli oğlandır.

Yalvarıram, ana, çalış atam da razılıq versin

B ə s i r ə. *(fikirli)*. Axır vaxtlar Mərdanın xasiyyəti tamam dəyişib. Söz demək olmur... Ancaq... bu məsələyə bəd vurmaz, qızım.

Ş ə l a l ə. Mən də elə bilirəm, ana. Hansı ata öz qızının xoşbəxliyini istəməz?! Siz hələ o İsini tanımırsız. O.. o bütün oğlanlardan yaxşıdır. Hamısından qoçaqdır, hamısından ağıllıdır! Ana, Bakıda mənə elə söhbətlər edirdi ki, sonra gecələr də yuxum ərşə çəkilirdi. Eh!.. Hansını danışım... Heç özüm də bilmirəm nə üçün həyəcan keçirirəm.

B ə s i r ə. Ürəyini qısma, Şəlalə. Sənin xoşbəxt günlərin hələ qabaqdadır.

Ş ə l a l ə. Ana, bilirsən, İsi də elçilərlə gəlib. Istəyir onu siz də görüb tanıyasız.

B ə s i r ə. Yox, qızım. Elçi adəti var. Hələ o bu tərəflərdə dolanmasın. Özün də get samovara od sal.

Ş ə l a l ə. Samovar bayaqdan üç dəfə qaynayıb, ana.

Şəlalə anasını öpüb qaçır. Paltarını dəyişmiş Mərdan içəri girir.

M ə r d a n. Yaxşi, bir de görüm, bunlar yəni əməlli başlı bir-birini sevirlər? Oğlan necə yerdəndir?

B ə s i r ə. Hamını öz arşınınla ölçmə, Mərdan. Ona qalsa, mən çox arzu edərdim Şəlaləni istəyən oğlan kasıb yerdən olaydı..

M ə r d a n. Niyə? Firavən yaşamaq pisdir? Soğan –çörək yeməyə gedir?

B ə s i r ə. Halal zəhmətlə qazanılan soğan – çörək də bal dadar.

M ə r d a n. Nə dediyini yaxşı anlayıram. Sabah işdən çıxarsalar, ciblərimə müryana düşər!

B ə s i r ə. Axı tamahını cilovlasan, heç işsiz də qalmazsan. Misal var: Əyri hələlik yaxşıdır, düz həmişəlik.

Küçə qapısı döyülür. Bəsirə çıxır. Bayırdan onun səsi eşidilir. “Buyurun, buyurun içəri” Bəsirə, ardınca Kamil, Mürsəl və Nemət içəri girirlər. Şəlalə qapı arasından onlara baxır.

K a m a l. Əssalamun və əleyküm, Bakıdan elçilərik. Biri Nemət, biri Mürsəl, biri mən – üç nəfərik.

M ə r d a n. Gördüm sizi, şad oldum ürəkdən.
Ev sahibi Mərdan kişiyəm mən.

M ü r s ə l. Axşamın xeyir ola, Mərdan kişi, keyfin necədir? De görüm bir bizə əhvalı – şərifin necədir?

M ə r d a n. Lap yaxşıyam, hörmətli qonaqlar.
Hər vaxt gözüm üstə yeriniz var.

Yaxınlaşıb onunla əl tuturlar.

N e m ə t. Hər vaxtınız xeyir, Mərdan kişi.

M ü r s ə l. Mən axırıncı dəfə on iki il qabaq bu rayonda olmuşam. Pah atonnan! İllərə bax ey... Elə bil lap srağa gün idi.

M ə r d a n. Keçin əyləşin.

B ə s i r ə. Hamınız xoş gəlibsiz.

Elçilər yerbəyer olurlar. Kamal ayağa qalxır.

K a m a l. Mərdan kişi müsaidənizlə qonaqları sizə təqdim edim.

M ə r d a n. Elə görək.

K a m a l. Özümdən başlayıram. Bəndəniz Yusif Kamal. Sizin gələcək kürəkənin dayısı. Xalq teatrında istedadlı aktyor. “Pəri cadu” da İblis. *(Rola girir. Bu vaxt Həsən gəlir. Kamal onun çiyinlərindən yapışıb qəhqəhə çəkir.)”* Ha... ha... ha... ha... ha... Yenə qulağıma qisas sədası gəlir, razıyam cəmi qoşunumla, cəmi kainatı təzəlzülə gətirən bir nifrətdən əmələ gəlmiş bəni insanı neçə yüz firqəyə bölüb və onların arasına ila- inqirazi – aləm cəngü-cidan salam”

H ə s ə n. Əmi bu nə teatrdır?

K a m a l. “Xəyyam” da xərabəti! *(Rola girir)*

Dün kərə, ah dalmış idim uyquya.
Bir də nə gördüm ki, yanır kainat.
Hər yanım atəş, mənə yoxdur nicat...

M ə r d a n. Aydındır, Keç o birilərə.

K a m a l. Sağımda, bizim və eyni zamanda sizin bəydadaşın əmisi Nemət, abostrofian – Tağızadə, Əzizbəyovneft mədəni. Ad, san, şan, şöhrət, plan, filan- hamısı öz qaydasıynan.

M ə r d a n. Bu da məlum.

K a m a l. Solumda Mürsəl İsabəyli. Tikinti ustası. Taxta, şalban, daş, torpaq, palçıq, mikrorayonlar, uca binalar, plan, filan- hamısı öz qaydasıynan.

M ü r s ə l. Pah atonnan! Illər necə gəldi getdi a... Elə bil lap srağa gün idi. İllərə bax ey...

M ə r d a n. *(Kamala)* Qurtardın?

K a m a l. Bəli.

M ə r d a n. *(Qalxır)*. Icazə verin indi bizim tərəfin camaatını sizə təqdim edim.

Q o n a q l a r. Buyuracaqsan, buyuracaqsan.

M ə r d a n. Məni tanıdınız. Sonrasına qalanda bu da bizim arvaddır. Bəsirə *(Oturur.)*

Q o n a q l a r. Çox gözəl... Hamımız tanış olduq...

K a m a l. *(Qalxır.)* Elə bilirəm indi əsl söhbətimizə başlamaq olar.

B ə s i r ə. Əlbəttə, buyurun.

H ə s ə n. Eyib şeydir ki, keçin mətləbə.

K a m a l. Bizim bu qastrol səfərində... Üzr istəyirəm... Qastrolsuz Bizim bu səfərdə, yəni sizə təşrif gətirməkdə məqsədimiz hamıya məlumdur.

M ü r s ə l. Demək belədir də...Sizin qız Bakıda bağça müəllimliyi texnikumunda oxuyanda bizim qardaşoğlu ilə tapışıblar. Məsələni bir yerə qoyublar ki, özləri üçün sevişsinlər. Uşaqciyəzlər necə deyiblər, elə də eləyiblər.

N e m ə t.  Başına gələn başmaqçı olar. Bu məhəbbət şoqərib hörümçək toru kimi bir şeydir. Yaxan ki, ona ilişdi ha... Hərləşdirib, hərləşdirib axırı salır səni öz tilsiminə. Sonra ha çalış, ha dartın, çıx oradan görüm necə çıxırsan.

H ə s ə n. Əmi, məhəbbət barəsində elə danışırsan ki, adamın canına vahimə dolur.

M ə r d a n.  Soruşmaq ayıb olmasın, oğlanın atası kimdir?

M ə r d a n.  Oğlanın atası –Camal, belə canlara dəyən alicənab bir kişidir.

N e m ə t. O kənddə olur, bu saat işinin qızğın vaxtıdır. Kolxozda kombaynçı işləyir.

K a m a l.   Pambıq, yığım,  plan, filan- hamısı öz qaydasıynan

B ə s i r ə.   Bəs anası?

K a m a l.   Anası Göyçək xanım . Qanadsız bir məleykə. Rayonda gözəl toxucu, fabrik, dəzgah, sap, kətan, parça, şərəf lövhəsi plan, filan- hamısı öz qaydasıynan.

M ü r s ə l. Pah atonnan! İllər necə də gəldi keçdi...Elə bil lap srağa gün idi. Illərə bax ey!..

K a m a l.   Bizim sözümüz  çox, yolumuz uzaq, vaxtımız məhduddur.

N e m ə t. Uşaqciyəz də... Oğlanı deyirəm ey.. Şöferlə mehmanxanada oturub, intizardadır.

M ü r s ə l.  Məsələ aydındır da... Söhbəti rezin kimi dartıb uzatmağın nə mənası.

K a m a l. Belə zənn edirəm ki, Bəsirə bacı razılıq əlaməti olaraq  bizim hərəmizə bir rumka.. üzr istəyirəm...bir stəkan şirin şay verər, içərik...

M ü r s ə l.  Ondan sonra biz mürəxxəs. bir də haçan məsləhət bilsöz dəm –dəsgahı ilə sizin qulluğunuzda  hazır.

N e m ə t.  Allah xeyir versin

H ə s ə n. Çox mübarəkdir, əmi, təbrik edirəm!

B ə s i r ə. Xoşbəxt olsunlar.

E l ç i l ə r. Toylarına gələk, inşallah.

Bəsirə qalxır.

M ə r d a n. Bəs heç demədinia oğlan özü nəçidir?

K a m a l.   Oğlan bu il universiteti bitirir.  Hələ çox gənc də olsa mahir qələm sahibidir.

M ə r d a n. Nə sahibidir?

K a m a l.   Qələm sahibi. Yazmaq, pozmaq, qəzet, jurnal, felyeton, filan – hamısı öz qaydasıynan. Yəni jurnalistdir.

M ə r d a n. *(ayağa qalxır).*  Nədir?! Jurnalist?!

Mən ölsəm də jurnalistə qız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!
Evdə yüz il qalsa da yalqız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!

E l ç i l ə r. Səbir elə bir, ay kişi,
Insafın olsun barı.
Korlama gəl haqq işi,
Ayrı salma onları.

M ə r d a n. Mən ölsəm də jurnalistə qız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!
Tənqid rdiblər məni haqsız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!

E l ç i l ə r. Elçiliyə gəlmişik,
Hörmətin olsun sənin.
Bizlərə qız verməyə
Minnətin olsun sənin.

M ə r d a n. Mən ölsəm də jurnalistə qız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!
Bax, belə lap göyə də çıxsanız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!

H ə s ə n. Əmim dedi, qurtardı!

B ə s i r ə. Mərdan, qonaqlara bu nə hörmətsizlikdir?

K a m a l.  Sənin kimilərə bilirsən nə deyirlər? Əzazil? Sadist?

M ə r d a n. Oturmayacağam! Elə ayaq üstə danışacağam!

K a m a l. Eybi yoxdur, gedəyin. İndi ki, belə oldu, məsələni ayrı cür həll edərik!

M ə r d a n. Xox! Baxarıq! Xoş gəldiniz!

Ş ə l a l ə. *(irəli atılir)*. Ata, sən neynədin!..

Elçilər çıxır.

M ə r d a n.  Mən ölsəm də jurnalistə qız...
Yox! Yox! Yox!  Verməərəm! Verməərəm! Verməərəm!

## **İKİNCİ ŞƏKİL**

Mehmanxananın qarşısı. Dadaş maşının açarlarını oynadaraq oxuyur:

Saqi, məndən uzaq ol, vermə şərab, qoyma içim,
İçərəm, keflənərəm, əyri  gedər ”Moskviç”im.

Əlində çamadan, qucağında it tutmuş Laləzar gəlir.

L a l ə z a r. Bağışlayın, o AZU 70-68 sizin maşındır?

Dadaş fitlə “ Bəli” deyir.

L a l ə z a r. Bekarsız?

Dadaş fitlə “ Yox” deyir.

L a l ə z a r. Bir xahiş etsəm, sözümü yerə salmazsız?

Dadaş fitlə “nə bilim” deyir.

L a l ə z a r. Adınız nədir? Ancaq xahiş edirəm onu fitlə deməyin.
D a d a ş. Adım Dadaşdır.
L a l ə z a r. Mənimki də Lalazardır.
D a d a ş. Çox şadam. Buyurun, xahişiniz nədir?
L a l ə z a r. De daş, bizi yaxın bir kəndə apararsız?
D a d a ş. Biz deyəndə siz neçə nəfərsiz?
L a l ə z a r. İki.
D a d a ş. O biri kimdir?
L a l ə z a r. Karapuzik.
D a d a ş. Həyat yoldaşınızdır?
L a l ə z a r. *(Gülür)*. Yox. De daş, itimdir.

Dadaş fitlə “Yox” deyir.

D a d a ş. Siz kənddə yaşayırsınız?
L a l ə z a r. Allah eləməsin! Bu rayonda Həsən adlı bir klub müdiri işləyir Atası atamla müharibədə bir yerdə vuruşub. Onlarda qalacam.
D a d a ş. Başa düşdüm.
L a l ə z a r. De daş, mənim xətrim üçün... Bakıdan gəlincə avtobus bizi lap əldən salıb, yorulmuşuq...
D a d a ş. İkinizində xətri yanımda əzizdir. Ancaq üz vurmayın, aparan deyiləm.
L a l ə z a r. Fu!.. Sonra deyirlər işləməyə rayona niyə getmirsiz Buyur! Bu da bunların mədəniyyəti!
D a d a ş. Mən də o saat sizin şəhərli olduğunuzu bildim.
L a l ə z a r. Nədən bildiniz?

D a d a ş. Qucağınızda rayona gətirdiyiniz mədəniyyətdən.

L a l ə z a r. Fu!.. Gözüm atırdı sizin tozlu-torpaqlı rayonunuz üçün. Bir həftə burda işləyib, yenə şəhərə qayıdacağam. Mənə instituta girməyə staj lazımdır. Başa düşdün?

D a d a ş. Mən də şəhərdə yaşayıram. Onu bilirəm ki, Bakının küçələrində taxıl, pambıq əkib becərmirlər.

L a l ə z a r. Nə demək istəyirsiniz?

D a d a ş. Sizin kimilərə demək istəyirəm ki, bəyənmədiyiniz rayonlarımızın taxılı olmasa, ac qalarsınız.

L a l ə z a r. Sonra?

D a d a ş. Sizin kimilərin ağız büzdüyü rayonlarımızın pambığı olmasa, çılpaq gəzərsiz.

L a l ə z a r. Fu!.. Biz Karapuziklə birlikdə gündə üç yüz əlli qram çörək yeyirik.. Geyinməyə qalsa... mini yubka üçün mənə bir metr parça gen-bol bəsdir, anladın? *(uzaqlaşır).*

Dadaş getmək istəyəndə İsrafil gəlir.

İ s r a f i l. Dadaş, gərək bağışlayasan, sənə yaman əziyyət veririk

D a d a ş. Niyə ki?

İ s r a f i l. Dünəndən səni işindən, gücündən avara eləmişik. Bakıdan bura gəlməyi zarafat sayırsan? Axı sən şofer deyilsən, hörmətli bir qəzetin fotoqrafısan...

D a d a ş. İsi, hər şeydən əvvəl biz dostuq. Şəlalani gəlin gətirib qapıdan ötürüncəyə qədər əziyyətinə dözməyə hazıram. *(O, yan-bu yana baxır.)* Bəs bu harda qaldı, gəlib çıxmadı?

İ s r a f i l. Kim?

D a d a ş. Mənim burda Cahan adlı qoca bibim yaşayır. Dalınca adam göndərmişəm... Eşitsə ki, şəhərdən gəlmişəm, mərəkə qoparar.

İ s r a f i l. Hə... İndiyə yəqin ki, Mərdan kişidən Şəlalənin razılığını alıblar. Oturub çay içirlər, mehriban-mehriban söhbətləşirlər. Qəribədir, özlüyümdə yüz faiz arxayınam ki, anası da, atası da bu məsələyə etiraz etməyəcək. Amma yenə ürəyim narahatlıqla döyünür. *(Gülür.)* Şəlalə mənə deyir, institutdan xahiş elə təyinatını bu tərəflərə versinlər. Gəlib rayon qəzetində işlərsən. Mən bağçamdakı uşaqlardan ayrılmaq istəmirəm. Biz evləndikdən sonra Bakıya köçsəm, onlarsız darıxacam.

Cahan gəlir.

D a d a ş. Bibi, səni xoş gördük*! (Onu öpür.)* Necəsən? Canın.. başın?

C a h a n. Sağ ol, ay bala, canım da, başım da hələlik öz yerindədir. Sizinkilər necədir?

D a d a ş. Hamısı əlini öpür. İsrafil, bibimlə tanış ol.

İsrafil Cahanla görüşür.

C a h a n. Xoş gəlmisən, ay bala. Barı xeyirdirmi?

İ s r a f i l. Xeyirdir, xala.

L a l ə z a r. Bibi, dostum İsrafil bu rayondan qəşəng bir qıza vurulub. Onunçün elçi düşmüşük.

C a h a n. Ay Allah mübarək eləsin.

D a d a ş. Özün necəsən ey, bibi?

C a h a n. Belə də.. Bir təhər.

D a d a ş. Daha adam iki təhər olmaz ki.

C a h a n. Deməyə də utanıram, ay bala...

İ s r a f i l. Məndən çəkinmə, xala...

C a h a n. Neçə ildi bu mehmanxanada təsərrüfatçı işləyirdim. Döşəkağıdır, balışüzüdür, otaqların xalça-palazıdır, canım sənə desin, qrafinkə, stəkan- bunlara mən baxırdım. Yazda kolxozumuzun sədri Mərdan...

İ s r a f i l. Mərdan?!

C a h a n. Bəli, tanımazsan. Çağırdı məni kabinetinə. Dedi: “Cahan arvad, səndən möhkəm şikayət var ha.. heç saqqala salam-zad vermirsən”. Nəfəsini çəkən kimi qarnının ağrısını bildim. Soruşdum: “Nə xəbərdir, başına dönüm?” ürəyimdə dedim: “Başın batsın!” Qımışdı: “İşini yoxlasaq, - dedi, - yəqin ki, əngəlin filanın çıxacaq. Gərək bir Mərdan qardaşının bığının altından keçəsən”,

D a d a ş. Nə qədər qopardı səndən?

C a h a n. Yüzcə manat! Özü də borc adıynan. Verdim, amma ürəyimdə dedim: “Heç sağ yeyib, salamat gəyirməyəsən”.

İ s r a f i l. Bəs sonra? Qaytarmadı?

C a h a n. Sonra yenə istədi, vermədim. Çıxartdı məni işdən, yerimə kababçı Xudayarın oğlunu qoydurdu.

İ s r a f i l. *(Həyəcanlı).* Cahan xala, bəlkə sən səhv edirsən?!

C a h a n. Oğlum, mən daha bu ağbirçək vaxtımda durub yalan danışmayacağam ki. Siz o Mərdanın işləklərindən xəbərdar deyilsiz. Indi durmasın, ispolkom da onun dalında durmuşdu. Yaxşı, bunlar bir yana, kimin qapısına elçi gəlmisiz?

D a d a ş. Tələsmə, sonra özün hər şeyi biləcəksən, bibi.

C a h a n. Yaxşı mən gedim, Həyət-bacanı tək qoymuşam. Axşam tərəfi yolunuzu gözləyəcəyəm. Ürəyiniz nə istəyir, deyin hazırlayım.

D a d a ş. Zəhmət çəkmə, bibi.

İ s r a f i l. Xala, heç bir şey lazım deyil. Bir azdan Bakıya getməliyik.

C a h a n. Bu yaxşı olmadı, neynək... Sağ olun. *(Ayaq saxlayır).* Dildə xudafizləşirəm, ancaq ürəyimdə deyirəm evə gəlsəydilər bir-iki çolpa kəsərdim, oturub yeyərdilər. *(Gedir.)*

İ s r a f i l. Demək Şəlalənin utana-utana atasından giley-güzar etməsi nahaqdan deyilmiş... Mərdan belə Mərdanmış!

Kamal, Nemət və Mürsəl gəlir.

K a m a l. Bacıoğlu, sənin bu qaynatan, üzdəniraq, nə qanmaz adammış! Xəbər alır, oğlan nəçidir, deyirəm qələm sahibi. Yazmaq, pozmaq, qəzet, felyeton, jurnal, filan. Hamısı öz qaydasıynan!..

N e m ə t. Siftədən söhbətimiz çox əntiqə başladı. Arvadı, Bəsirə, ana, bacım olsun, lap axıracan bizə tərəf qaldı...

M ü r s ə l. Sonra elə bil Mərdan kişiyə həmzad toxundu, sıçradı yerindən. Dayın ona dedi: “Sadist”, o da dedi, öldür məni, oturmaram. Biz də qalxdıq, dağılışdıq, çıxdıq, gəldik.

D a d a ş. Bəs qızın “həri”sini almadız?

K a m a l. Adə yox ey... Atası dəbbələdi. Az qalmışdı əlbəyaxa olaq.

N e m ə t. Siz mənə fikir vermədiz. Yaman hirslənmişdim. Özü də, uşaqlıqdan şakərimdir, hirsləndə bildirmirəm.

M ü r s ə l. Əh!.. Biz üç, onlar iki - əzişdirəcəkdik də.

D a d a ş. İsi getdik!

İ s r a f i l. Hara?

D a d a ş. Qızı basaq maşına, birbaş Bakıya!

İ s r a f i l. Elə yaramaz.

K a m a l. Siz yola düşün. Mən Dadaşla burada qalıram.

M ü r s ə l. Qalıb neyləyəcəksən?

K a m a l. Bu işi yarımçıq qoymaq olmaz!

N e m ə t. Qalxaq mehmanxanaya, məsləhətləşək, görək nə tədbir görürük.

K a m a l. Mən hər şeyi fikirləşmişəm. Oynayacağımız tamaşanın əvvəlini, axırını da görürəm!..

İ s r a f i l. Eh!.. Mərdan! Mərdan! Özün iyirminci əsrdə yaşasan da, şüurun hələ çox geridə sürünür.

Gedirlər. İsrafil tək qalır. Şəlalə tənginəfəs gəlir.

Ş ə l a l ə. Ürək sevibdirsə nədir günahım,

Neyçün eylədilər peşiman məni.
Təkcə sənə qalıb, indi pənahım,
Qıyma ki, soldursun bu hicran məni.

İ s r a f i l. Bulud gələr, keçər gedər, sevgilim,
Ömrüm, günüm sənə qurban, darıxma.
Çəkmə heç nahaqdan kədər, sevgilim.
Tapılar hər dərdə dərman, darıxma.

Ş ə l a l ə. O and-peymanımız getməsin hədər,
Istəyirəm səni öz canım qədər.
Niyə bəxtimizə üz verdi kədər,
Qoydular eşqində nigaran məni.

İ s r a f i l. Qəlbimi yandıran məhəbbətindir,
Ümidim, təsəllim, sədaqətindir.
Səni məndən ayrı salmaq çətindir,
Üzülər möhnətdir canım, darıxma.

Ş ə l a l ə. *(kənara baxır).* İsi! Atam dalımca gəlir! Gedək! Gedək, bizi bir yerdə görməsin!

Şəlalə başındakı örpəyi açıb, çərşabsayağı örtür. İsrafillə uzaqlaşır.

## ÜÇÜNCÜ ŞƏKİL

Göl qırağında məzərəli bir yer. Laləzar Həsənlə gəlir. Həsənin əlindəki tranzistor musiqi çalır.

L a l ə z a r. Qasançik.

H ə s ə n. Bəli, Laləzar xanım

L a l ə z a r. Sən məni doğrudan sevirsən? Yoxsa elə vaxtını keçirirsən?

H ə s ə n. *(gülür).* Hi.., hi.., hi... Təbiətin qanunudur da Bilirsən... Bilirsiz... Laləzar, mən sizə necə müraciət eləyim? “Sən” deyim, yoxsa “siz”?

L a l ə z a r. “Sən” de.

H ə s ə n. Hə, bilirsən...biz ona görə görüşürük ki.., qaydadır da, cavan qızın yanında gərək bir oğlan, arvadın da yanında gərək kişi xeylağı olsun

L a l ə z a r. *(oturur).* Onda yaxın əyləş.

H ə s ə n. Xətrinə dəyməsin, Laləzar xanım çimçəşirəm ey, üst-başından it iyi gəlir.

L a l ə z a r. Sənin paxanın da çox qəribə adamdır!

H ə s ə n. Niyə?

L a l ə z a r. Deyir, mən atanla cəbhə dostu olsam da, sənə saxta arayış verə bilmərəm ki, iki il burada işləmisən. Ona görə tezliklə çıxıb şəhərə getməliyəm...

H ə s ə n. Axı niyə qalıb işləmirsən? Bura bəyəm pis yerdir? Gözəl mənzərəsi, təmiz havası... İtin də yanında.

L a l ə z a r. Mən yazıq bilmirəm axşamlar hara gedim. Burada kafe yox... Restoranda orkestr çalmır. Sən insafsızda bir demirsən ki, maşın tutum, aparım Taləzarı Tbilisidə gəzdirim, gətirim.

H ə s ə n. Aaz... heç bilirsən burdan ora neçə kilometrdir?

L a l ə z a r. Fu!.. Məhəbbət kilometrə baxmır. *(Qalxır.)* Eh!.. Biz başqa-başqa adamlarıq!

Tranzistorda caz çalınır.

L a l ə z a r. Bu musiqi mənim lap sümüylərimə düşdü. Oynamaq istəyirəm. *(Rəqs eləməyə başlayır.)* Qasançik, niyə oynamırsan! Yaxın gəl, utanma. *(Həsən də rəqsə qoşulur.)*

L a l ə z a r. Halım pərişandır, gözlərim xumar,
Eşq-məbəbbətdir məst edən məni,
məst edən məni,
Hər kəs ürəyimi ovlaya bilsə,
Qurtarar həsrətdən, qüssədən məni,
qüssədən məni.
Bacardiğim bir şey var, sevgidir,
Olmayıb sevdada öyrədən məni.
öyrədən məni.
Mənasız baxışlar nəyə gərəkdir?
Süzməsin böş yerə hər ötən məni,
hər ötən məni.
Bağçada həm güləm, həm də çiçəyəm,
Neyçün istəməyir bu Həsən məni,
bu Həsən məni...

Rəqs bitir. Əlində tilov olan Kamal və çiynindən fotoaparat asmış Dadaş gəlir. Parik və süni bığ qoymuş Kamal, gözünə sarı eynək taxdığından tanınmaz olmuşdur.

K a m a l. Dadaş, indi gör o Mərdanın başına nə oyun açacağam. Ancaq məni familiyamla çağır, tanımasınlar.

L a l ə z a r. *(onları görür)*. Oho... De daş, salam!

D a d a ş. Salam.

L a l ə z a r. Yanınızdakı centlmen kimdir?

H ə s ə n. *(diksinir).* Hə?! Rəsul...zadə?

D a d a ş. Bəli, şəxsən Rəsulzadə özüdür.

Həsən götürülür. Laləzar da ardınca qaçır.

K a m a l. Qəribədir, onlar niyə hürkdülər?

D a d a ş. Nə bilim, görünür səni kiməsə oxşatdılar.

K a m a l. Biz çalışmalıyıq ki, gəlişimizi Mərdanın ailəsindən başqa heç kəs bilməsin. Yoxsa, buna ayrı rəng verərlər. Qaş düzəldən yerdə vurub göz çıxardarıq.

D a d a ş. Elədir. Camaata bir hay lazımdır. Ikicə gün ərzində rayona söz yayılar ki, Bakıdan gələn birisi özünü vəzifəli şəxs kimi qələmə verib, dələduzluq edir.

K a m a l. Dadaş, gəlsənə elə burda məskən salaq

D a d a ş. Yaxşı yerdir.

K a m a l. *(tənəyə qalxı*r). Bayaq Mərdanın dalınca göndərdiyin uşağa nə dedin?

D a d a ş. Tapşırdım, desin ki, şəhərdən bir hörmətli yoldaş gəlib, göl qırağında səni gözləyir. Vəssalam. *(Zarafatla.)* Yoldaş Rəsulzadə, siz... *(Mərdanla Həsən gəlir, tez sözünü dəyişir.)* siz yəqin bilirsinizmi bu göldə xoşladığınız balıqlardan olacaq?

K a m a l. Güman edirəm ki, hər halda əliboş qayıtmayacağıq.

H ə s ə n. *(astadan).* Əmi, eşitmişdinmi rayonumuza ispolkom Rəsulzadə adlı birisi gələcək?

M ə r d a n. Eşitmişdim. Ancaq deyəsən o zadəsiz idi.

H ə s ə n. Əmi, elə budur, mən ölüm. Balıq ovu bəhanədir. Rayonu razvedkaya çıxıb!

M ə r d a n. Sən ölməyəsən, elədir ki, var! Sən get, duyuq düşməsin. Mən bir ağzını arayım. *(Həsən gedir. Mərdan yaxınlaşır.)* Salaməleyküm. Siz bizim tərəflərə xoş gəlib, səfa gətirmisiz.

K a m a l. Dadaş, bu kişi kimdir?

D a d a ş. Onu mən çağırtdırmışam, yoldaş Rəsulzadə. Yerli adamdır. Gölün hansı yanında balıq olub-olmadığını bizə desin.

K a m a l. Afərin, Dadaş ağıllı iş görmüsən

M ə r d a n. Elə seçdiyiniz yer lap əladır. Buranın dibi ki dərindir, balıqlar hamısı ora yığışır.

K a m a l. Kişi, adın nədir?

M ə r d a n. Adım Mərdandır.

K a m a l. Hansı məzhəbə qulluq edirsən?

M ə r d a n. Mən kommunal təsərrüfat idarəsinin müdiriyəm

D a d a ş. Əmican, eviniz yaxında olur?

M ə r d a n. Hə... Budu bax... o bağça, o həyət bizimkidir.

D a d a ş. Zəhmət olmasa, get, kişi üçün oturmağa bir stul gətir.

M ə r d a n. Belə mənim bu gözlərim üstə! *(Gedib qayıdır).* Sənin adın Dadaş oldu?

D a d a ş. Bəli, bir yaxşı çay da dəmlətdirsəydin qiyamət edərdin.

M ə r d a n. O da baş üstə. Bəlkə yeməyə...

D a d a ş. Yox, zəhmət çəkmə, heç nə lazım deyil.

Mərdan tələsik gedir.

K a m a l. Bizim meşələrdə, bizim dağlarda,
Ceyrandan savayı, maral gərəkdir.

D a d a ş. Hicran atəşilə yanan aşiqə,
Ayrılıqdan sonra vüsal gərəkdir.

K a m a l. Göz –qaşı sürməli nazlı gözəlin,
Mərmər yanağında bir xal gərəkdir.

D a d a ş. Dilbərin gözü məst, dili şipşirin.
Qönçə dodaqları qənd – bal gərəkdir.

K a m a l. Mərdan kimilərin canın almağa,
Mənimtək aktyor Kamal gərəkdir.

D a d a ş. Mərdan kişi nömrəmizi yeyib, səsə salma! Mən bunu onun gözlərindən oxudum.

K a m a l. Bunu da bacarmasam, onda mən bir qəpiklik aktyor deyiləm!

D a d a ş. Ss... Gəlirlər!

Mərdanla Şəlalə əllərində stul, süfrə, çay dəsgahı daxil olur. Şəlalə Kamalı tanıyınca gülməkdən özünü güclə saxlayır.

K a m a l. Mərdan kişi, bu uşaq kimdir?

M ə r d a n. Qızımdır, yoldaş Rəsulzadə. *(Şəlaləyə.)* Keç əmilərlə tanış ol. *(Şəlalə yaxınlaşıb Dadaşla görüşmək istəyəndə Mərdan çımxırır.)* Ay qız! Əvvəlcə o birisi ilə, böyük əmi ilə. *(Şəlalə Kamalla əl tutur.)*

Ş ə l a l ə. Şəlalə.

M ə r d a n. Hə bax elə...

Ş ə l a l ə. *(Dadaşla görüşür.)* Şəlalə.

D a d a ş. Dadaş.

Şəlalə süfrə düzəldir. Kamal ona yaxınlaşır.

K a m a l. Neçə yaşın var, qızım?

Ş ə l a l ə.  İyirmiyə az qalıb, əmi.

K a m a l. Maşallah, maşallah. *(Mərdana.)* Bizim uşaq beş yaş bundan böyükdür.

M ə r d a n. Qızdır, oğlan?

K a m a l. Hə*? (Fikirləşir.)* Qızdır

M ə r d a n.  Allah saxlasın, Adı ndir?

K a m a l. Hə? *(Fikirləşir.)* Adı... Nərgizdir...

M ə r d a n.  Adı ilə böyüsün

K a m a l. *(Şəlaləyə.)* Oxuyursan, qızım, yoxsa...

Ş ə l a l ə.  İşləyirəm, əmi. Bağça müdirəsiyəm.

K a m a l. Çox gözəl. *(Mərdana.)* Mənimki filoloqdur.

M ə r d a n. Allah başacan eləsin. O gün olsun filosof olsun.

K a m a l. *(Şəlaləyə),* İşdə səni incitmirlər ki?

Ş ə l a l ə.  Yaman incidirlər, əmi.

K a m a l.  Necə?! Kim?!

Ş ə l a l ə.  Bağçamdakı uşaqlar.

K a m a l. Uşaqların şıltaqlığı da bir ləzzətdir. Məgər biz balaca vaxtımızda valideynlərimizi azmı incitmişik?

M ə r d a n.  Şəlalə, sən daha get. *(Astadan).* Anana de əldən zirək tərpənsin. *(Şəlalə yubanır.)*

K a m a l. Ovumuz yaman müvəffəqiyyətsiz keçir, Mərdan kişi, tilova balıq gəlmir.

M ə r d a n. Balıq lazımdırsa, həyətimdə hovuzda diriləri var...

D a d a ş. Yox, canım. Qirmaqla tutmağın dilxoşluğu başqadır. Ona qalsa, elə Bakıda mağazadan alardıq.

M ə r d a n. Rəhmətliyin oğlu, elə danışırsan ki, bişmiş toyuğun gülməyi gəlir. Bakıda balıq?! Bir də, hara tələsirsiz, yoldaş Rəsulzadə, siz bir stəkan çay için, balıq da gələr. *(Şəlaləyə.)* Sən cum, hovuzdakı balıqlardan birini tut sal vedrəyə, gətir bura!

Ş ə l a l ə. Sağ olun, əmilər.

K a m a l. Xoş getdin, mənim qəşəng qızım. *(Şəlalə qəhqəhə çəkib uzaqlaşır.)* Tərbiyəli uşağa oxşayır.

M ə r d a n.  Mal yiyəsinə oxşamasa, haramdır. Ancaq yamanca güləyəndir.

D a d a ş. *(stulu göstərir).* Buyurun əyləşin, yoldaş Rəsulzadə, dincinizi alın.

M ə r d a n. *(astadan Dadaşa.,* Çaydanın birinə çay doldurmuşam...birinə konyak, hansından süzüm?

D a d a ş. Rəsulzadə üçün çay süz, mənim üçün hansından istəsən. *(Mərdan stəkənlardan ikisinə konyak, birinə çay süzür.)* Mərdan əmi çayı nə tez dəmlətdirdin?

M ə r d a n. Elə hazır dəmdə idi. Daha soyutmayın.

Kamal stəkanlardan birini götürüb, dodaqlarına yaxınlaşdırcaq üz-gözünü büzüşdürür.

K a m a l. Mərdan, bu ki konyakdır, sən neylədin?!

M ə r d a n. Siz, Dadaşın stəkanını götürdüz. Bağışlayın. *(Gülə-gülə öz stəkanını qaldırır.)* Onda sağ olun. Mən də getdim. Şəxsən sizin can sağlığınaza, yoldaş Rəsulzadə...

K a m a l. Təşəkkürlər. *(İçib, üstündən konfet yeyir).* Dadaş Mərdan kişi mənim çox xoşuma gəlir. Böyük qabiliyyət sahibidir.

D a d a ş. Düz buyurursunuz, siz adam tanımaqda sərrafsınız.

M ə r d a n. *(Stəkanları doldurur).* Nə fikrə getmisiniz, yoldaş Rəsulzadə?

K a m a l. Fikirləşirəm, dünyanın işinə bax, sənin kimi bir şəxs kommunxoz işləyir. Sual edirəm: Niyə? Nə səbəbə?

M ə r d a n. (*dərdi təzələnir*). Ona görə ki, arxam yoxdur. Siz dərdimi bilmirsiniz. Mən... Mən... Eh... Vəfasız dünya!.. *(Başina ikiəlli qapaz salır).* Nə isə... çayınızı soyutmayın. Sonraya qalsın...

K a m a l. Sonraya niyə qalsın! (Götürüb stəkanını boşaldır, O birilər də içir.) Mərdan kişi, səhv etmirəmsə, sənin barəndə bbir felyeton yazmışdılar... O nə məsələdir?

M ə r d a n. Axx!.. Güya mən kimlərləsə əlbir olub hökümətin filan qədər pulunu həzmi- rabedən keçirmişəm.

D a d a ş. Mərdan Əmi, başa düşmədim. O "həzmi-rabe" nə olan şeydir?

M ə r d a n. Əvvəl mən də bilmirdim. Sonra öyrəndim ki, kövşəyən heyvanlarda yemi dördüncü mədədə həzmə vermək deməkdir.

D a d a ş. Sən dövlətin pulunu yemisən? Dünyasında inanmaram!

M ə r d a n. İndi məni işdən götürmək istəyirlər. Ax... o Kələntərzadə əlimə keçsəydi...

D a d a ş. Hirslənmə.

K a m a l. Mərdan kişi, yəqin ki, Sədini tanıyırsan?

M ə r d a n. *(tərəddüdlə).* Hə... Lap yaxşı.

K a m a l. Rəhmətlik deyib ki, hirs atəşinin ilk odundan qəzəb sahibi yanır.

M ə r d a n. Gözəl sözlərdir.*(Dadaşa.)* Sədi atasıdır? *(Dadaş başını tərpədir.)* Allah rəhmət eləsin, siz o kişiyə çox oxşayırsınız.

K a m a l.   Sən elə şeyləri ürəyinə salıb əsəbiləşmə.

M ə r d a n. Bəs neyləyim,  yoldaş Rəsulzadə?

K a m a l.   Allahına dua elə, mənim tilovuma yaxşı bir balıq ilişsin. Kefim açılsın...

M ə r d a n. Sonra?

K a m a l.  Sonra... Səni ürəyin istəyən bir işə düzəltmək nə çətin məsələ imiş ki...

M ə r d a n. *(şadlanır).* Yoldaş Rəsulzadə, sizi təbrik eləmək olar?

K a m a l.  Nə münasibətlə?

M ə r d a n. Ey... hər şeyi bilirəm. Siz bizim rayona ispolkom sədri gəlirsiniz...

K a m a l.  Nə? Bu nə sözdür, məndən ispolkom sədri olar?..

D a d a ş. Mərdan kişi, bunu ayrı yerdə desən, sənə gülərlər.

M ə r d a n. Mən uşaq deyiləm, hər şeyi başa düşürəm. Siz ondan da yüksək vəzifəyə layiqsiniz.

K a m a l. Yalandır, canım, xahiş edirəm bunu başqa yerdə danışıb eləməyin.

M ə r d a n. Baş üstə. *(Stəkan –nəlbəkini süfrəyə yığır. Oğrun-oğrun gələn Şəlalə vedrədə balıq gətirir. Mərdan süfrəni onun qoltuğuna dürtüb yola salır.)*

K a m a l. Dadaş, deyəsən Mərdan kişinin bəxti gətirmədi. Bu çayda balıq adlı şey yoxdur.

M ə r d a n. Siz nagüman olmayın, yoldaş Rəsulzadə. *(Dadaşı işarə ilə kənara çağırır.)*  Bir iş var, başına dönüm. Amanın günüdür, gərək mənə kömək edəsən.

D a d a ş.  O nə işdir?

Mərdan vedrədən iri bir balıq çıxarır.

M ə r d a n. Səndən çox təvəqqe edirəm, paltarlarını soyun, baş vur suya, bu balığı altdan ilişdir yoldaş Rəsulzadənin qırmağına.

D a d a ş.  Əşi, sən nə danışırsan?

M ə r d a n. Dadaş, elə bil ölmüşəm, meyidimi yerdən götürürsən.

D a d a ş. Mərdan əmi, bu havada mən gölə necə girim?

M ə r d a n. Nə olar, qadası, axı mən üzmək bacarmıram

D a d a ş. Naxoşlaram, Mərdan əmi

M ə r d a n. Dadaş, naxoşlasan da, naxoşlamasan da dərman pulun məndə. Başa düşdün?

D a d a ş. Düşdüm. Sən bilən, neçə manatlıq naxoşlaram?

M ə r d a n. Altdan konyak vurmusan, çox soyuq olmaz. İyirmi... beş manatlıq

D a d a ş. Yox. Onu bil ki, mənim suya girməyim, səni o sudan çıxarmaq deməkdir. Başa düşdün?

M ə r d a n. Düşdüm, yaxşı soyun, otuz məndə.

D a d a ş. Əllidən aşağı soyunmaram

M ə r d a n. Çarəm nədir. Ancaq belə elə ki, o səni görməsin... *(Cibinə pul basır.)*

D a d a ş. Arxayın ol. *(Soyunur, Balığı götürüb suya girir.)*

K a m a l. Kişi, deyirsən yəni, bu göldə yaxşı balıq olur?

M ə r d a n. Baho... Siz nə danışırsınız...
Gördüyünüz bu göldə
Səhər, axşam hər zaman
Gözəl balıqlar üzər
Insanı eylər heyran
Rəngləri əlvan-əlvan
Suyun dibində süzər.

K a m a l. *(tilovu çəkib ucadan səslənir.)* Balıq! Balıq! Özü də lap yekəsindən! Dadaş, hardasan?!

M ə r d a n. Dadaş çimməyə getdi.

Kamal balığı qırmaqdan ayırır. Dadaş sudan çıxır.

K a m a l. Hə... Bəxtin gətirdi, Mərdan kişi!

M ə r d a n. Yəni, sizi necə başa düşüm?

K a m a l. Düşdü tamam qaydasına
Yaxşı gedir işlərimiz
Sizinki də, bizimki də.

D a d a ş. Sahmana saldım hər işi
Gətirdi bəxtin, ey kişi.

B i r l i k d ə. Düşdü tamam qaydasına
Yaxşı gedir işlərimiz
Sizinki də, bizimki də.

K a m a l. Tez çatarıq faydasına,
Vicdanımız olsa təmiz,
Sizinki də, bizimki də.

D a d a ş. Sahmana saldım hər işi
Gətirdi bəxtin, ey kişi.

B i r l i k d ə. Tez çatarıq faydasına,

Vicdanımız olsa təmiz,
Sizinki də, bizimki də.

## DÖRDÜNCÜ ŞƏKİL

Mərdanın evi. Şəlalə evi səliqəyə salaraq oxuyur.

Ş ə l a l ə. Qətran saçlarında gecədir hər an,
Gözlərin qəlbimə daim nur saçır.
Sən mənim günəşim gur işığımsan.
Mənə lazım deyil nə şöhrət, nə şan,
Təkcə sən varsansa, kifayətimdir,
Həyatda fəxrimsən, yaraşığımsan
Bəzən həsrət ilə görüşən zaman
Dolaşır boynuma ağ biləklərin,
Təsəvvür edirəm sarmaşığımsan.

**Bəsirə gəlir.**

B ə s i r ə. Sənin işindən heç baş açmıram.

Ş ə l a l ə. Nə üçün, anacan? Mən neyləmişəm?

B ə s i r ə. Daha neyləyəcəksən. Oturub dizinə döyməkdənsə, evdə fır-fır fırlanıb mahnı oxuyursan. Barı o səni istəyən oğlanın halına yansana. Utanmırsan?!

Ş ə l a l ə. Ana, indicə elə onun sözlərini oxuyurdum. Bu şeri İsi mənə həsr etmişdi. Sonra vermişdi bir bəstəkar dostu musiqiyə salmışdı. Deyirdi ki, bu mənim birinci və sonuncu şerimdir. Daha yazmayacağam.

B ə s i r ə. Sən də bu tezliklə çıxartdın onun məhəbbətini ürəyindən, hə? Etibarsız!

Ş ə l a l ə. Təqsir məndədir? Sən atamı razı sal, elə bu saat oynaya-oynaya gedim.

B ə s i r ə. Eh... Zəmanə qızları! Bu gün dəlicəsinə birinə vurulursunuz, sabah aranızda pişik asqıran kimi ayrılıb hər şeyi unudursunuz.

Ş ə l a l ə. O pişiyə demək lazımdır ki, asqırmasın. *(Atasını yamsılayır.)* “Mən jurnalistə qız verməərəm” Niyə?! Təqsiri nədir?! Uşaqlarçun bağça tikdirməyə buraxılan pulları yeyəndə yaxşı idi, haqqında jurnalist felyeton yazanda pis?! İndi mən o tifillərin üzünə baxa bilmirəm. Balaca da olsalar ağılları kəsir. Fikirləşirlər, bəs müdirimiz Şəlalə nə üçün atasını bu yoldan çəkindirməyib?

B ə s i r ə. Eh... Tülkü yeyəni aslan da qusdura bilməz. Yaxşı, atanın qonaqları kimlərdir?

Ş ə l a l ə. Tanımadım

B ə s i r ə. Quzunu tələm-tələsik kəsdirməyindən bilirəm ki, gələn hər kimsə ona lazımlı adamdır. Keçəcəyi olmasa, Mərdan qonağa bir stəkan çay da verməz.

Maşın siqnalı eşidilir. Mərdan hövlnak içəri atılır..

M ə r d a n. Keçin, keçin, qonaqları qarşılayın. *(Şəlalə gülə -gülə anasını həyətə çəkir Kamal Rəsulzadə, Dadaş daxil olurlar.)* buyurun yuxarı başa yoldaş Rəsulzadə. Ev- eşiyimiz, güzəranımız sizə layiq olmasa, gərək bağışlayasınız.

D a d a ş. *(əlindəki vedrəni göstərir).* Bəs bu balığı neyləyim?

K a m a l. Ver Mərdan kişiyə buraxsın həyətdəki hovuza, heyvandır.

M ə r d a n. Bəlkə bişirsinlər, yoldaş ...

K a m a l. Yox, canım. Mənim ona çıxmağım ehtiyac üzündən deyil, məşğulatdır.

Şəlalə vedrəni alıb aparır.

B ə s i r ə. *(Kamala),* Bağışla, qardaş, adın nədir?

D a d a ş. Adı yoldaş Rəsulzadədir.

B ə s i r ə. *(çımxırır).* Ə sən onun dilmancısan? Özü bəyəm laldır?

K a m a l.*(ehtiyatla).* Bacım, siz mənə elə “qardaş” deyin. Nə buyurursunuz?

B ə s i r ə. *(tərəddüdlə).* Heç! Sonraya qalsın, çörəyinizi yeyin, sizə deyəsi bir-iki sözüm olacaq! *(Gedir. Kamal özünü itirir.)*

M ə r d a n. Xahiş edirəm keçin süfrə başına.

K a m a l. Mərdan kişi, sən burda nə böyük dəsgah açmısan.

M ə r d a n. Gərək bağışlayasınız, bir az tələsiyə düşdü.

Otururlar. Şəlalə içəri girir.

Ş ə l a l ə. Ata, Həsən gəlib səni həyətə çağırır.

M ə r d a n. De gəlsin, bura

K a m a l. Lazım deyil, canım. Bəlkə bizim məxfi bir söhbətimiz oldu.

M ə r d a n. *(Şəlaləyə.)* Deyinən yatıb.

Şəlalə çıxır

K a m a l. Mərdan kişi, nə əcəb qızı ərə verməmisən?

M ə r d a n. İstəyəni çoxdur, yoldaş Rəsulzadə. Ancaq heç kimi bəyənmir. Srağa gün Bakıdan elçilər gəlmişdi. Qız razılıq vermədi.

D a d a ş. Niyə?

M ə r d a n. Oğlan lütün biri idi.

K a m a l. Tanıyırdın onu?

M ə r d a n. Yox... Bəs jurnalist necə olacaq İşi – gücü də mərdiməzarlıq

D a d a ş. Elə əcəb eləyib verməmisən

M ə r d a n. Əşi, qabağa düşənləri oğlanın dayısı idi. Özü də artist. Gərək görəydin, burda nə teatr çıxarırdı. Yoldaş Rəsulzadə, vallah allah atan Sədiyə rəhmət eləsin, atalar nahaqdan deməyib: Yaxşı igid dayısına oxşar. Fikirləşdim ki, belə dayının bacısı oğlu nə təhər olar.

Gülürlər. Mərdan qədəhlərə konyak süzür.

D a d a ş. Mən yox...

M ə r d a n. Ə, bir-iki yüz qrama nə var ki.

D a d a ş. Sən nə danışırsan. Kişini Bakıya aparmalıyam.

M ə r d a n. Əlli qram.

D a d a ş. Əmi, məndən kənar ol, vermə şərab, qoyma içim.
İçərəm keflənərəm, əyri gedər “Moskviç”im
Ürəyim ayrı şey istəyir.

M ə r d a n. Nə istəyirsən de, utanma. Sən yaxşı oğlansan.

D a d a ş. Qatıq. *(Mərdan qalxıb getməyə hazırlaşır.)* Mərdan əmi, əzgiliniz olmaz?

M ə r d a n. Ə, indi əzgil vaxtıdır? *(Gedir.)*

D a d a ş. Axşama düşdük. Məncə bu vədə yola çıxmağın mənası yoxdur.

K a m a l. Bəs neyləyək?

D a d a ş. Gecəni burda Cahan bibimgildə qalarıq. Səhər sübdən gedərik.

K a m a l. Ağıllı məsləhətdir. Onda iç. *(Tərini silir.)*

M ə r d a n. Mən indiyə kimi belə çətin rol oynamamışdım.

Mərdan qatıq gətirir.

M ə r d a n. Buyur, Dadaş.

Kamal qədəhini qaldırıb otaqda gəzişir.

K a m a l. Məlum məsələdir ki, bütün insanların fizionomiyası əsasən skeletdən və ətdən ibarətdir. Dadaşın da, Mərdan kişinin də, hətta o cümlədən

lap elə mənim özümün də. Bir sözlə bütün bəşəriyyətin cismini varlığını təşkil edən bu iki amildir.

M ə r d a n. Qızıl sözlərdir!

D a d a ş. Sss!

K a m a l. İnsanlar hələ lap körpə ikən həm daxilən, həm də zahirən bir-birinə çox bənzəyirlər. Lakin sonralar hərə bir tərbiyə mühitində böyüyüb yaşa dolunca onların siması da xisləti də büsbütün dəyişir, tanınmazlaşır. Kimi mərd, kimi qorxaq, kimi məğrur, kimi doğru, kimi oğru olur...

M ə r d a n. Əhsən!.. Allah atan Sədiyə rəhmət eləsin!

K a m a l. Təklif edirəm bu qədəhləri içək sümüyü iliklərinə qədər doğruluqla, mərdliklə dolu..

M ə r d a n. *(qalxır).* Sağ olun. Siz mənə lap xəcalət verdiniz.

Kamal ehmalca onun çiynindən basıb, davam edir.

K a m a l. Sümüyü iliyinə kimi mərdliklə dolu, təmiz, namuslu insanların sağlığına!

M ə r d a n. Gözəl sağlıqdır. Elə insanların biri də siz özünüzsüz, yoldaş Rəsulzadə. İstərdim... sizdən nə gizli, çörəkli bir yer olsun.

D a d a ş. Pekarni?

M ə r d a n. Yox... Belə nə qoyub, nə götürdüyümü özüm biləydim. Bir də...bundan sonra daha mənə yaraşmaz ki, durum gedim bir başqasına müavin işləyim.

D a d a ş. Əlbəttə, müdir. Rəis. Rəhbər vəzifə.

K a m a l. Aydındır.

Mərdan qədəhləri doldurur.

M ə r d a n. Deyirəm, Dadaşın da sağlığına içsək pis olmaz

K a m a l. Mütləq. Dadaşın xətri mənim yanımda həmişə əzizdir.

D a d a ş. Sağ olun. Minnətdaram.

İçirlər. Mərdan yenə konyak süzmək istəyir.

K a m a l. Kifayətdir, Mərdan kişi.

M ə r d a n. Yox, indi də söz verilsin Dadaşa, görək o nə deyəcək.

D a d a ş. Mənim deyəsən sözüm yoxdur.

M ə r d a n. *(gülür).* Bəs... Bəs mənim sağlığım?

D a d a ş. Yoldaş Rəsulzadənin sağlığı, elə hamımızın sağlığı deməkdir.

M ə r d a n. Doğrudur. *(Tək içir.)* Ə, Dadaş, o fotoaparatı niyə gəzdirirsən, çəksənə şəklimizi, bu süfrənin başında.

K a m a l. Çək, Dadaş. Bu gündən bir xatirə kimi, pis olmaz.

M ə r d a n. Yoldaş Rəsulzadə, icazə verin arvad-uşaq da gəlib sizinlə birlikdə çəkdirsin.

K a m a l. Bu nə sözdür. Mərdan kişi, əlbəttə...

M ə r d a n. *(qapı arasından).* Ay uşaq, bəri gəlin. *(Şəlalə içəri atılır. Bəsirə yaxınlaşıb astanada dayanır. Kamal astanada stulda oturur.)*

K a m a l. Qızım, Şəlalə, sən mənim yanıma gəl. (*Şəlalə keçib onun sağında durur.)*

D a d a ş. Bəsirə bacı., siz də irəli buyurun

B ə s i r ə. Mənim şəkil şəkdirməkdən zəhləm gedir.

K a m a l. Bunu biz xahiş edirik!

B ə s i r ə. Nahaq yerə!

Dadaş fotoaparatı stulun başına bərkidir. Özü üçün Kamalın solunda yer saxlayır. Mərdanı isə dalda dayandırır.

D a d a ş. Hə, bax belə. *(Aparatı qurub yerinə qaçmaq istəyəndə Mərdan Dadaşa yan alır.)*

M ə r d a n. *(Astadan.)* Otuz verim yerimizi dəyişək.

D a d a ş. Bir kəlmə... əlli. *(Mərdan pul çıxarıb onun cibinə basanda Kamal təəccüblənir).*

M ə r d a n. Bura bax, elə çək ki, stoldakı yemək – içmək də düşsün.

Mərdan keçib Kamalın solunda dayanaraq əlini ləzzətlə onun çiyninə qoyur)

M ə r d a n. Hə, indi şaqqıldat. *(Dadaş aparatı qurub yerinə qaçır.)* Saxla! Yoldaş Rəsulzadənin alnına milçək qonub. *(Milçəyi qovur.)* Hə, şaqqıldat. *(Dadaş aparatı qurub təzədən yerinə qaçır.)* Saxla!

D a d a ş. Yenə nə oldu?

M ə r d a n. *(tək səbir gətirir.)* Allah xeyrə calasın, hə, şaqqıldat gəlsin.

Dadaş qaçıb arxada dayanır. Şəlalə ucadan qəhqəhə ilə gülür. Şəkil çəkilir.

M ə r d a n. Dadaş, xərci mənim boynuma, indi bir dənə də yoldaş Rəsulzadənin şəklini ayrıca çək.

D a d a ş. O da baş üstə.

Rəsulzadənin tək şəklini çəkir.

M ə r d a n. Dadaş, bu şəkildən bir dənə mənim üçün bilirsən nə boyda çıxardarsan...

D a d a ş. Nə boyda?

M ə r d a n. Arvad, o evdə çarpayının altındakı ramkanı gətir bura.

Bəsirə gedir.

Ş ə l a l ə. *(Kamala).* Siz anamdan inciməyin, o doğrudan da şəkil çəkdirməyi xoşlamır.

Bəsirə içərisində nəhəng cüssəli pəhləvan şəkli olan yekə bir çərçivə gətirir.

M ə r d a n. Bax, bu boyda! Bunu çıxardıb, yoldaş Rəsulzadəni salacağam ora.

K a m a l. *(bayıra baxır).* Doğrusu, sizin bu yerlərin səfası, mənzərəsi mənim çox xoşuma gəldi.

M ə r d a n. Qurbandır bu yerlər öz səfası ilə, öz mənzərəsilə yoldaş Rəsulzadə.

K a m a l. Təşəkkür edirəm... Mərdan kişi, əgər bilsəydim sizə narahatçığı olmaz, beş – altı günlüyə qızım Nərgizi göndərərdim qalardı burada, havasını dəyişərdi.

D a d a ş. Sizin qızınız – rayon? Gəlməz.

M ə r d a n. Ha vaxt gəlsə, belə gözüm üstdə yumşaq yeri var. Beş –atı gün yox, lap beş-altı ay qalsın.

K a m a l. Məncə vaxtdır, daha getmək lazımdır. *(Kağıza nəsə yazıb Mərdana verir.)* Bu mənim evimin telefon nömrəsidir. Haçan lazım olsam zəng çalarsan.

M ə r d a n. Siz bizə həmişə lazımsız. Belə canım çıxar zəng də çalaram, axtarıb taparam da. Qoy, deyim, gəlib arvad- uşaq da xudahafizləşsin. *(Yan otağa keçir).*

K a m a l. *(ciddi)* Dadaş, səni başa düşə bilmirəm. O nə işdi, Mərdandan pul aldın?

D a d a ş. *(gülür).* Əlli burda, əlli də göl qırağında. Cahan bibim mehmanxanada işləyəndə bu Mərdan borc adı ilə arvaddan yüz manat rüşvət alıb. Aparıb ona verəcəyəm.

Mərdan, Bəsirə və Şəlalə gəlir.

Ş ə l a l ə. *(sevincək Kamala).* Atam deyir qızınızı bura göndərəcəksiniz, elədir?

K a m a l. Görək də... Çalışaram dilə tutum.

Ş ə l a l ə. Biz də çalışarıq qızınız üçün burda xoş keçsin.

K a m a l. Mən sizin rayona gəldiyimdən çox razı qaldım.

Ş ə l a l ə. Biz də.

M ə r d a n. Elə hamımız.

B ə s i r ə. Ancaq mən yox.

M ə r d a n. Arvad!!

K a m a l. Bu narazılığın səbəbini bilmək olarmı, Bəsirə xanım?

B ə s i r ə. Qardaş, əvvəla siz kimsiniz, nəçisiniz – tanımıram. Düzü, heç maraqlanmıram da. Çünki bir müəllimə kimi mənim başqalarında keçəcək işim yoxdur. Gələn qonağa hörmət eləmək də ev sahibinin borcudur. Ancaq... onu bilin ki... *(Ərinə işarə ilə.)* Sizə xidmət göstərən bir adama inanmaqda çox boyük səhviniz var.

M ə r d a n. Bəsirə!

K a m a l. Mane olma, Mərdan kişi. Bəsirə bacı, siz təmamilə haqlısınız. Lakin mən həmişə belə deyiləm. Ikinci dəfə yolum bu tərəflərə düşəndə siz məni daha yaxından tanıyarsınız. Onda bilərsiz ki, kiməm və necə adamam.

M ə r d a n. Siz çox sadə adamsınız, yoldaş Rəsulzadə. Dadaş səndən də xahiş edirəm, çalış yoldaş Rəsulzadə qızını bura tez göndərsin.

D a d a ş. Baş üstə, çalışaram.

M ə r d a n. Yaxşı ki, sən varsan, ay Dadaş. Yoxsa... *(Astadan qulağına.)* Yoxsa, bu işləri belə səliqə-sahmanla yoluna qoya bilməyəcəkdim.

M ə r d a n. Bu tanışlıq bayram oldu bizimçün,
Dərdi, qəmi unutdurdu büsbütün.
Şadlıqdan özümə gələ bilmirəm.

B ə s i r ə. Xəbərdar olsam da az-çox hər işdən,
Baş açmadım bu gəlişdən, gedişdən.
Məqsədiniz nədir, bilə bilmədim.

Ş ə l a l ə. Çox razıyıq sizin kimi qonaqdan,
Sevincimdən oynayırdım bayaqdan,
İstəyirdim güləm, gülə bilmədim.

K a m a l. İcazə verin...

D a d a ş. Sizi tərk edək,
Salamat qalın.
Görüşənədək...

M ə r d a n. Şadlıq gətirdiz.

Ş ə l a l ə. Bu evimizə

Xoşbəxt olasız
Yaxşı yol sizə...

**P ə r d ə**

# İKİNCİ HİSSƏ

## BEŞİNCİ ŞƏKİL

Mərdanın həyəti. Ağac altda stol, stul və telefon qoyulmuşdur. Həsən gəlir.

H ə s ə n. Görəsən əmim məni niyə çağırib. Hər halda xeyir olmaz. Qəribədir, özü də telefonla tapşırdı ki, əməlli geyin gəl. *(çağırır.)* Mərdan əmi! Mərdan əmi! *(Mərdan çıxır)* Salam, əmi.

M ə r d a n. Ay əleyküm, qardaşoğlu, işlərin necədir?

H ə s ə n. Iş var ki, necəliyi də olsun? Klubu eləyiblər anbar, altı aydır əllərinm cibimdə bekar gəzirəm.

M ə r d a n. Rəhmətliyin oğlu, məvacibini ki, alırsan, nəyinə gərəkdir. Nə isə... Qardaşoğlu!..

H ə s ə n. Bəli.

M ə r d a n. Qulaqlarını aç, diqqətlə qulaq as, gör nə deyirəm:istərdinmi səni o klubdan götürüb eləyəydilər mədəniyyət sarayının müdiri?

H ə s ə n. Məni ora qoyan kimdir?

M ə r d a n. Istəyərdinmi gözəl ev-eşik sahibi olaydın, içində də əntiqə, cavan, nazlı bir xanımın pərvanə tək, başına hərlənsin?

H ə s ə n. Əmi, sən nağıl danışırsan, nədir?

M ə r d a n. Qardaşoğlu, istəyərdinmi bu eşitdiklərin sabah dönüb gerçək olsun?

H ə s ə n. Mənim istəməyimlədir?

M ə r d a n. *(ciddi).* Atan yoxdursa da, əmin Mərdan hələ sağdır! Subay gəzdiyin yetər. Sənə əla bir yerdən qız tapmışam.

H ə s ə n. O... nə qızdır? Kimin qızıdır, əmi? Adı nədir?

M ə r d a n. Yoldaş Rəsulzadənin! Adı da Nərgizdir.

Şəlalə həyətə çıxır.

Ş ə l a l ə. Ata, vaxtdır, mən gedim qonağı qarşılamağa?

M ə r d a n. Keç, içəri! Söhbətimizi qurtaraq, sonra. Özün də vağzala tək yox, Həsənlə gedəcəksən.

Şəlalə evə keçir.

H ə s ə n. Mən neyləməliyəm, əmi?

M ə r d a n. Dediyim Nərgiz xanım bu gün Bakıdan bizə gəlir. əvvəl başdan qabağına çıxıb onu hörmətlə qarşılamalısan. Sonra o fintifluşka ilə əlaqəni kəsməlisən.

H ə s ə n. Laləzarı deyirsən?

M ə r d a n. Bəli. O sənə yaraşan qız deyil. Cincanlı şeydir.

H ə s ə n. Onunla dünəndən üzülüşmüşük. Çamadanının, itini götürüb getdi mehmanxanaya. Ancaq deyəsən, tələsdim. Barı hərdən darıxanda məşğulat eləyirdim.

M ə r d a n. Adə, ölməmişəm, nə çoxdur qız. Statistika məlumat verir ki, hər kişinin payına üç yarım arvad düşür.

H ə s ə n. Eh!.. Sənin də elə boş-boş vəd verməyin var. Əli aşından da oldum, Vəli aşından da.

M ə r d a n. Elə danışma. Bu sevdada uduzmayacaqsan.

H ə s ə n. Həsən əmi, sən Rəsulzadənin qızını görmüsən?

M ə r d a n. Qızınü görməmişəm, ancaq özünü ki, görmüşəm. Keçən həftə onu evimə qonaq çağıranda bu məsələyə əncam çəkmişdim.

H ə s ə n. Bəlkə qızı idbardır, səfehin biridir?

M ə r d a n. Axmaq. Təki sən o ailə ilə qohum olasan. Qızın ağlı, gözəlliyi nəyinə gərəkdir?. *(Saatına baxır.)* qatarın gəlməsinə az qalır. *(Çağırır.)* Şəlalə! *(Həsənə.)* Heç nədən çəkinmə. Eşitdin! Zirək tərpən. Çalış elə vağzalda qızı məngərlə.

Şəlalə əlində gül dəstəsi çıxır.

Ş ə l a l ə. Ata, axı Həsənə niyə zəhmət verirsən? Elə özüm tək gedib...

M ə r d a n. Nə deyirəm, ona qulaq as! Mənim bir sözümü iki eləmə. Gələndə qızı maşınla gətirərsiz. *(Həsənlə Şəlalə gedirlər.)* Eh... Bircə o Nərgizi Həsənə calaşdıra bilsəydim. Arxasız, dayaqsız vallah yaşamaq çətindir.

Balaca külək əsdimi, müvazinətini itirib yıxılırsan. Ancaq Rəsulzadə kimi arxan olandan sonra mənə heç kim, heç kim bata bilməz. *(çırtma çalıb oynayır.)*

Bəsirə gəlir.

M ə r d a n. Deyirəm, kişi sözündə nə möhkəm adammış. Səhər zəng çalmışdı ki, bu gün qızımı rayona yola salıram, qabağına çıxın.

B ə s i r ə. Hə kişi?

M ə r d a n. Yoldaş Rəsulzadə.

B ə s i r ə. Zəhləm o Rəsulzadədən gedir, səndən də!

M ə r d a n. Arvad, dilini gödək saxla. Çaşıb qızın da yanında o sayaq danışarsan, biabır olarıq.

B ə s i r ə. Dayan, qoy hələ gəlsin. Mən o qıza bir sifət göstərim ki, günü sabah düz dədəsinin xarabasına qayıtsın.

M ə r d a n. Bəsirə, adam işıq gələn yerə pambıq tıxamaz. Başqaları yoldaş Rəsulzadə kimiləri ilə yaxınlıq eləməyə can atır. Bizim evə kişi öz ayağı ilə durub gəlmişdi. Sən...

B ə s i r ə. Mən təmiz adımı ləkələmək istəmirəm. Indicə elə o Rəsulzadənin üstündə maarif şöbə müdiri ilə dalaşmışam.

M ə r d a n. Niyə? Nə olub ki?

B ə s i r ə. Başqalarının dərsindən kəsib mənim adıma yazdırmışdı. Buna nə ad vermək olar?

M ə r d a n. Ey dünya!.. Felyetona düşəni o maarif müdiri salamımı bığı ilə alırdı. Indi gör nə canyananlıq edir. *(Şəlalə ilə Həsən gəlirlər.)* Bəs Nərgiz xanım hanı?

Israfil əlində çamadan həyətə girir.

H ə s ə n. Buyur, bu da Nərgiz xanım.

İ s r a f i l. Salam!

M ə r d a n. *(təəccüblə).* Biy!.. Sən!..

Ş ə l a l ə. Yox, bu Nərgiz deyil, onun qardaşıdır.

İ s r a f i l. Eh! Bacım yaman tərs qızdır. əvvəcədən razılıq vermişdi. Sonra qatarın yola düşməsinə azacıq qalmış fikrini dəyişdi. Onun əvəzinə mən gəldim. Onsuz da istirahətə getməyə bir yer axtarırdım.

M ə r d a n. Belə əcəb eləmisən, xoş gəlmisən!

Sənə qurban bu əmin,
Yüngül olsun qədəmin.

Bu kasıb daxmamıza
Həmişə sən gələsən.

Bilirik qiymətini,
Saxlarıq hörmətini.
Çəkərik hər nazını,
Qoymarıq incələsən.

At o dəftər-kitabı,
Ye doyunca kababı.
Gəz, dolan, kef elə bir,
Sən gərək dincələsən.

Heyif Mərdan kişini,
Bu cür insan kişini,
Dədənin dostu kimi
Tanımırsan hələ sən.

İ s r a f i l. Tanış olaq. *(Mərdanla, Bəsirə ilə görüşür.)* İsrafil, İsrafil.

B ə s i r ə. *(kinayəli).* Gərək elə bacın da səninlə gələydi. Dədəni də gətirəydin, nənəni də. Nə var o isti Bakıda qalıblar.

İ s r a f i l. Düz deyirsiz, xalacan, şəhər yaman bürküdür. Atam sizin rayonu təriflməkdə səhv etmirmiş. Buralar çox səfalı yerdir.

B ə s i r ə. Hələ çox qalacaqsan burda.

İ s r a f i l. Haçan darıxsam onda gedəcəyəm, xala.

M ə r d a n. Qoymarıq darıxasan, qadası.

B ə s i r ə. Elə darıxacaq. Günü sabah deyəcək ki, məni Bakıya ötürün.

Ş ə l a l ə. Ana, bəs mən nəyəm? Bir qonağı da saxlaya bilmərəm?

İ s r a f i l. Çalışaranm burada çox qalım, Bəsirə xala. Rayonunuzun kitabxanası, mədəniyyət sarayı, klubu...

H ə s ə n. Mədəniyyət sarayında ay yarımdır “Fantomas” kinosunun ikinci, üçüncü seriyası gedir. sabahdan da birinci seriyası başlayacaq. Klubumuzdan gözünü çək. Oranı anbar eləyiblər. Müdiri də güya mənəm.

İ s r a f i l. Neçə? Anbar eləyiblər? Yox...Klubu boşaltdırıb camaatın istifadəsinə vermək lazımdır.

H ə s ə n. Ay boşaltdılar ha...

M ə r d a n. Bunlar bir yana, kişinin səhhəti, kefi, əhvalı, işi, gücü necədir?

İ s r a f i l. Heç barədə şikayəti yoxdur. Bəsirə xaladan yaman razılıq edir.

B ə s i r ə. O, məndən razılıq edir?

İ s r a f i l. Bəli, sizi tərifləyirdi ki, cəsarətli, sözü üzə deyən adamsınız.

M ə r d a n. Yaxşı, qadası, Yoldaş Rəsulzadə ilə çəkdirdiyimiz o şəkilləri gətirmisən, ya yox?

İ s r a f i l. Gətirmişəm. *(Çamadanı açıb iki fotoşəkil çıxarır.)* Buyurun.

M ə r d a n. Bəh!.. . Bəh!.. . Bəh!.. Nə yaxşı düşmüşük Sağ ol ay Dadaş! *(Şəklə, sonra İsrafilə baxır.)* fikir verirsiz İsrafil bala dədəsinə necə oxşayır? Gözləri... Qaşları...

Ş ə l a l ə. Burnu.

H ə s ə n. Alnı.

B ə s i r ə. Qulaqları

M ə r d a n. Lap elə bil yoldaş Rəsulzadənin sütül vaxtıdır. Yaxşı, səndən bir şey soruşum, İsrafil bala, dədənlə olursan, ya öz ev-eşiyin var.

Ş ə l a l ə. Subaydır, ata. Dədəsi evində olur.

B ə s i r ə. Ay qız, sən bunu hardan bilirsən?!

İ s r a f i l. Elədir. Subayam. Ancaq atam, anam məni yaman tələsdirir.

M ə r d a n. Əlbəttə, bu saat evlənmək sənə hər şeydən vacibdir. Kişi xeylağına nə lazımdır: su, hava, günəş, bir də arvad.

B ə s i r ə. Bir də vəzifə...

H ə s ə n. Əmim qızıl kimi söz deyir

M ə r d a n. Həsən, əngə vermə, sən get kabab hazırla, toqqanın altını bətkidək

İ s r a f i l. Əziyyət çəkməyin, Mərdan əmi, mən kabab yeyən deyiləm.

B ə s i r ə. Əziyyəti qoyunu kəsib soyanda çəkiblər.

İ s r a f i l. Bilirsiniz, Bəsirə xala, bir də mən elə dadlı yeməklərə öyrəşməmişəm

M ə r d a n. Niyə oğul, mədən xəstədir?

Ş ə l a l ə. Yoox... Mədəsi lap sazdır.

B ə s i r ə. Ay qız, sən nə bilirsən mədəsi necədir?!

İ s r a f i l. Neçə vaxtdır tələbə yeməkxanasının yağsız xörəklərinə açışmışam. Borş, kotlet, makaron, vermişel... Birdən birə məcazımı dəyişə bilmərəm.

Ş ə l a l ə. Bəs xətrin nə istəyir?

İ s r a f i l. Çıxıb göl qırağını gəzmək, təmiz hava udmaq.

Ş ə l a l ə. Gedək! Göl qırağını sənə mən göstərəcəm.

B ə s i r ə. Otur yerində! *(Həsənə).* Apar onu təmiz hava udmağa

İ s r a f i l. Əgər Şəlalənin ürəyi istəyirsə, icazə verin elə üçlükdə gedək

B ə s i r ə. Yox! Onun ürəyi çox şey istəyə bilər!

M ə r d a n. Eybi yoxdur, qızım, sən də qoşul onlara. Mən icazə verirəm

Hər üçü gedir. Darvazadan çıxanda Həsən ayrılır.

Ş ə l a l ə. Həsən, sən bizimlə getmirsən?

H ə s ə n. Məsəl var, treti lişnıdir.

B ə s i r ə. *(ərinə).* Axı sən niyə belə edirsən? O, qızı aldadıb yoldan çıxarar! Nə üçün mənimlə məsləhətləşmirsən?!

M ə r d a n. Rəhmətlik Ömər İbn Xəttab deyib ki, məşləhətləşməyə başqa adam tapmayanda öz arvadınla da məşləhətləşə bilərsən. Ancaq bir şərtlə: onun dediyini tərsinə eliyəsən. *(Ciddiləşir.)* Ev, idarə - fərqi yoxdur, onun bir böyüyü olmalıdır!

Həsən həyətə girir.

H ə s ə n. *(əli ilə göstərir).* Əmi, o qoyunu "Doğru yol" kolxozunun sədri Əmirqulu gətirdi. Doqqazın ağzında verdi qucağıma ki, Mərdan kişinin qonağı gəlib, lazım olar.

B ə s i r ə. Sən Şəlaləni onunla tək qoyub qayıtdın?!

H ə s ə n. Bəs mən qucağımda erkək, yanlarına düşüb rayonu gəzəcəkdim? Bu da Laləzarın "Karapuzik"i deyil ki...

B ə s i r ə. Bu dəqiqə götür o qoyunu, apar bir baş Əmirqulunun kabinetinə burax.

H ə s ə n. Baş üstə!

M ə r d a n. Dayan! Göndərilən payı geri qaytarmazlar.

B ə s i r ə. O pay deyil. Kolxozun malıdır. Rüşvətdir!

M ə r d a n. *(Həsənə).* Apar onu burax bizim tövləyə. *(Bəsirəyə),* Başqaları kolxozun heyvanını şişə çəkəndə halal olur, bizə gələndə rüşvət? Yoldaş Rəsulzadənin oğlu kimin evinə düşsəydi, bu erkəyin biri yox, beşi kəsiləcəkdi.

H ə s ə n. Mən heç Əmirqulu kişini belə bilmirdim. Balam, qanacaqlı adammmış! *(Gedir).*

B ə s i r ə. Ah... Mərdan! Sən neyləyirsən?! Bu işlərin axırı necə olacaq!

M ə r d a n. Nə qədər ki, yoldaş Rəsulzadənin kölgəsi üstümüzdədir. Yaxşı olacaq. *(Bəsirə acıqla gedir. Mərdan tək qalır.)* Eh vəzifə! Vəzifə! Hərdən oturub fikirləşirəm ki, kaş bu lotoreya biletlərinin uduşuna vəzifə də düşəydi. Papağımacan bütün var –yoxumu satıb lotoreya biletinə verməsəydim, nakişi idim. Əzizim, canım, ciyərim, vəzifə! Səndə elə güclı hikmət var ki, adamı başqalarının gözündə ağıllı göstərirsən. Danışmaq üçün ona yaxşı dil verirsən.

M ə r d a n. Şöhrəti var, şöhrəti var vəzifənin,
Qiyməti var, qiyməti var vəzifənin.

Kim dadıbsa, yaxşı bilir,
Ləzzəti var, ləzzəti var vəzifənin.

Dost tanışlar məclisində,
Hörməti var, hörməti var vəzifənin.

Hər nə desən sözün keçir,
Qüdrəti var, qüdrəti var vəzifənin.

Həqiqəti nə gizlədim,
Dövləti var, dövləti var vəzifənin.

Nakam qaldım, ürəyimdə
Həsrəti var, həsrəəti var vəzifənin.

Amma yaman vəfasızsan vəzifə! Hələ bir kişidə axıraca sədaqətlə qalmamısan.

Telefon zəngi. Mərdan dəstəyi götürür.

M ə r d a n. Kimdir?

T e l e f o n. *(Rəsulzadənin səsi).* Allo! Kommutator, mənə Mərdan kişinin evini calaşdırın.

M ə r d a n. Ay adam, calaşdırıblar. Bura elə onun evidir. Mərdan kişi də mənəm. Sözünü de.

T e l e f o n. Mərdan kişi! Baho... Salam... Danışan Rəsulzadədir.

M ə r d a n. *(dəyişir).* Hə?! Kim?.. Yoldaş Rəsulzadə! Zarafat eliyirsiz. Lap özü olmaz.

T e l e f o n. Şəxsən özüdür

M ə r d a n. Həmişə səsinizi eşidək, yoldaş Rəsulzadə. Sizlərdən nə əcəb bizi yada salmısınız?

T e l e f o n.Nə danışırsan Mərdan kişi. Mən səni unuda bilərəmmi?

M ə r d a n. Çox sağ olun. Inanın ki, bu dəqiqə şadlığımdan sinəmdə ürəyim mayallaq atır.

T e l e f o n. Bəsirə bacı, Şəlalə necədir?

M ə r d a n. Şəklinizə baxıb, canınıza dua eliyirlər, yoldaş Rəsulzadə

T e l e f o n. Bizim uşaq sağ-salamat gəlib çıxdı?

M ə r d a n. Bəli. Ancaq qızın yerinə oğlan gəlib ha, xəbəriniz var?

T e l e f o n. Bilirəm. Nərgiz getmək istəmədi. Israfil neyləyir a...

M ə r d a n. Elə bu dəqiqə əmlik ətindən doyunca kabab yeyib, göl qırağına gəzməyə getdi, Şəlalə ilə.

T e l e f o n. Şəlalə ilə?

M ə r d a n. Bəli, necə?

T e l e f o n. Mərdan kişi sən nahaq yerə elə iş tutursan. Görürsən, mən indi İsrafildən nigaran qalacağam.

M ə r d a n. Xətircam olun, yoldaş Rəsulzadə bizim qız sizin oğlana heç zad eləməz. Rayona haçan gəlirsiz?

T e l e f o n. Sağlıq olsun ayın başında ordayam. Israfildən muqəyyət ol, Mərdan kişi. Xudahafiz.

M ə r d a n. *(tələsik)*. Xudahafizdən qabaq siz İsrafil barədə heç nigaran qalmayın, yoldaş Rəsulzadə. Bəsirə də, Şəlalə də lap elə bizim Həsən də pərvanə kimi başına dolanırlar İsrafilin. Məndən sizə, ailənizə, ondan sonra da ki, Dadaşa salam! Hə indi xudahafiz. *(Dəstəyi qoyub, tərini silir.)* Ha... ha... ha...

***P ə r d ə.***

## ALTINCI ŞƏKİL

Səhərdir. Göl qırağı. Təzə tikilmiş möhtəşəm bir binanın divarları görünür. İsarafil təpə üstdə dayanmışdır.

İ s r a f i l. Sevmişəm mən səni xeyli zamandır,
İntizara necə dözüm, Şəlalə?
Bilməzdim hicranın belə yamandır.
Yollarda qalmışdı gözüm, Şəlalə.

Yandım həsrətinlə hər gün, hər gecə,
Eşqimin sirrini saxlayım necə?
Gəl sənə dərdimi deyim gizlicə,
Ürəkdə çırpınır sözüm, Şəlalə.

Bir lalə yanaqlı qönçəsən, gülüm,
Qönçədən lətifsən, incəsən, gülüm.
Hamıdan gözəlsən, məncə sən, gülüm,
Sənə qurban olum özüm, Şəlalə.

Başa düşmürəm, vüsal olan yerdə də hicran olarmış?! Mən Şəlaləyə həm yaxınam, həm də ondan çox uzağam.

İsrafil tapança alışqan çıxarıb papiros yandırır. Cahan yoldan keçəndə onu görüb ayaq saxlayır.

İ s r a f i l. Şəlalə! Şəlalə! Mən gündə milyon dəfə bu kəlməni təkrarlasam da yorulmaram. Sənin adın uca dağlar zirvəsindən qıjıltı ilə axan büllur suları xatırladır. O şəlalə sulardan odlu ürəyimə sərinlik yayır.

C a h a n. Odur. Özüdür ki, var. Keçən ay Şəlaləyə elçi göndərən oğlandır!

İ s r a f i l. Sənin adın məhəbbətdə tilsimli tellərinə dolaşdığım uzun, qara hörükləri xatırladır. O Şəlalə hörüklərdə bihuşedici ətirlər duyuram.

C a h a n. Çox ürəyi yanıqlı danışır. Yəqin qızı qaçırmağa gəlib.

İ s r a f i l. Sənin adın xoşbəxt bir qəlbin qəhqəhəsini yada salır. O şəlalə qəhqəhələrdən özümü ən bəxtəvər insan sanıram. Eh!.. Bircə sən mənim olsaydın.

C a h a n. Bıy, başıma xeyir! Əlindəki də tapançadır!

İsrafil aşağı enəndə Cahan götürülür. Naləzar gəlir.

L a l ə z a r. Bağışlayın, İsrafil sizsiniz?

İ s r a f i l. Bəli, mənəm.

L a l ə z a r. Axir ki, tapdım sizi. Tanış olaq. *(Əlini uzadır.)* Laləzar!

İ s r a f i l. *(Görüşür).* Çox şadam. Nə qəşəng də adınız var, Laləzar!

L a l ə z a r. Demək, ancaq adım xoşunuza gəldi?

İ s r a f i l. Hələlik özünüz barədə bir söz deyə bilmərəm.

L a l ə z a r. Fu! Sizin nə qəribə zövqünüz varmış. Heç şəhər adamına oxşamırsınız.

İ s r a f i l. Elədir. Mən uşaqlıqdan kənddə böyümüşəm.

L a l ə z a r. *(kənara).* Bəxtimdən bu da belə çıxdı!

İ s r a f i l. Siz məni hardan tanıyırsınız?

L a l ə z a r. Mərdan kişinin qardaşı oğlu Həsənin söhbətlərindən. Mənim bu rayona gəldiyin az vaxtda çox şeylərdən xəbərdaram. Hətta onu da bilirəm ki, Şəlaləni sənə verməyəcəklər.

İ s r a f i l. Ha... ha... ha...maraqlıdır.

L a l ə z a r. Bəli, gülməyin, qızın atası bu işə qəti etiraz edir.

İ s r a f i l. Əgər Şəlalə məni sevirsə...

L a l ə z a r. Şəlalə əvvəl də bir başqasının dərdindən ölürmüş.

İ s r a f i l. Bəs sonra nə olub?

L a l ə z a r. Sonrasını siz daha yaxşı bilərsiniz. Mərdan kişi qızını əvvəlki oğlandan ayırıb, indi atanıza görə sizə sırımaq istəyir. Məni yandıran odur ki, Şəlalə də bu işə razılıq verir.

İ s r a f i l. Mən bunlardan tamam xəbərsizəm...

L a l ə z a r. Mən sizi özümünki bilib, can yandırdığım üçün dedim. Heyifsiniz. Bir də eşitdiyimə görə Mərdanı işdən götürməyə hazırlaşırlar. Bəli, bəli, mənə inanın.

İ s r a f i l. Göstərdiyiniz qayğıya görə təşəkkür edirəm.

L a l ə z a r. *(kənara).* Bircə bunu yola gətirə bilsəydim! Atasının köməyilə yerim institutda hazır idi. *(Şəlalənin gəldiyini görür.)* Privetçik. *(Gedir. Şəlalə hövlnak daxil olur.)*

İ s r a f i l. Şəlalə! Sənə nə olub? Niyə belə həyəcanlısan?

Ş ə l a l ə. Hər şey yüz səksən dərəcə tərsinə çevrilib. Əvvəl bizim evlənməyimizə anam razı idi, atam razı deyildi. Indi atam razıdır, anam yox. Dünən gecə sən otağına çəkilib yatandan sonra arvad evdə qiyamət qoparmışdı. Deyir ki, Şəlalə birinci oğlana dönük çıxdı, mən də onu Rəsulzadənin oğluna verməyəcəyəm.

İ s r a f i l. Şəlalə, başqa çarəmiz yoxdur. Anana açıb deməlisən ki, İsrafil elə mənə elçi göndərən oğlandır.

Ş ə l a l ə. Onda da qurduğumuz oyun pozulacaq. Sənin burada qalmağın mümkün olmayacaq. Eh, bunların işindən baş çıxarmaq çətindir.

İ s r a f i l. Ay qız, onlar məgər bizim işimizdən baş çıxara bilirlər? Hazırkı vəziyyətdə ananın məndən nə qədər zəhləsi getsə, mənim ondan bir o qədər xoşum gəlir. *(Onu oxşayır. Təzə tikilmiş binanı göstərir.)* Görürsən də, maşallah, ev deyil, səadət sarayıdır. Bunu atana tikdirməkdə bilirsən nə qiyamət eləmisən?!

Ş ə l a l ə. Mən nə elədiyimi yaxşı bilirəm.

İ s r a f i l. Səndə də ürək varmış ha!.. Qır-saqqız olub yapışdın kişinin yaxasından ki, göl qırağında tikdirdiyin imarət bizim olmalıdır, yoxsa evlənməyimiz baş tutmayacaq. Ha!.. ha!.. ha!..

Ş ə l a l ə. O təkcə Rəsulzadəyə görə hər güzəştə getməyə hazırdır.

İ s r a f i l. Rayonda başqa tikililər illərlə yubanır, ancaq bu...

Ş ə l a l ə. Bəs sən vəzifəpərəst yaltaqları, qorxaqları nə bilmisən? Atam onlardan daş, kərpic, taxta, şalban istəyəndə "baş üstə" deyib həmin gün göndərirdilər. Bəziləri heç pul da götürmürdü. Niyə? Çünki ispalkomun dostu idi. Arxası vardı...

İ s r a f i l. Bu rayona gəlməyim bir jurnalist kimi mənim üçün ən gözəl ezamiyyət oldu. Bir para şəxsiyyətsiz şəxsiyyətləri yaxşı tanıdım. Səni indidən əmin edirəm, Şəlalə, işləməyə başqa yerə getməyəcəyəm. Xahiş edəcəyəm, elə məni bura, sizin rayona müxbir göndərsinlər.

Ş ə l a l ə. Doğru deyirsən?

İ s r a f i l. Bəli. Mütləq! Öz həyatını yaltaqlıq, qorxaqlıq, riyakarlıq təməli üstündə quran, yaşamağın mənasını qarnı dolusu kababda görən adamciyəzləri abırdan salacağam. Qabarlı əllərilə, alın tərilə, namuslu zəhmətilə dolananların haqqını müdafiə edəcəyəm!

Ş ə l a l ə. Mən sənə inanıram, İsrafil.

Uzaqdan uşaqların mahnısı eşidilir.

Səhər olcaq qızıl günəş
Qonaq gələr bağçamıza.
Pəncərədən qucaq-qucaq
Nur səpələr bağçamıza.

Ş ə l a l ə. Oxuyan mənim uşaqlarımdır. Bir bağçanın çiçəkləri... yolumu gözləyirlər. Heç bilirsənmi onları nə qədər sevirəm. Hələlik, İsrafil.

İ s r a f i l. Mən burada atanı gözləməliyəm, Şəlalə. Bu görüşümüzdən çox şey asılıdır. Qoy, heç olmasa səni bir az ötürüm.

Gedirlər. Əlində İsrafilin çamadanı olan Həsən, Bəsirə və Cahan gəlir.

C a h a n. Bax... elə burdan keçirdim, gördüm Şəlaləni istəyən o əvvəlki oğlan, əlində par-par parıldayan tapança, saçları pırpız, Məcnun kimi dayanıb təpənin başında. Gözlərindən qan damır... Deyir: Şəlalə! Şəlalə! O vaxtdan ki, sənə aşiqəm, adın dilimdən düşmür. Məhəbbətindən ciyərim alışıb yanır. Bircə səni götürüb aradan çıxsaydım, ta dərdim olmazdı. Yoxsa qıracağam bu işdə qabağımı kəsənlərin hamısını.

B ə s i r ə. *(fikirli).* Mən bu günü yəqin eləmişdim: əgər o vəfalıdırsa, gec-tez Şəlalənin dalınca gəlməlidir.

H ə s ə n. Kişi adammış, balam. Tələbə olasan, bu cəsarətdə?

C a h a n. Bəs məhəbbəti nə bilmisən? Qız girinə keçən kimi vurub qoltuğuna, qaçırdacaq Bakıya. Hə... özü deyirdi... Bu qulaqlarımla eşitdim...

H ə s ə n. Qorxuram, İsrafil məsələdən xəbər tuta, araya qan düşə.

B ə s i r ə. Mən tezliklə İsrafili buradan qovmalıyam!

C a h a n. Amma, insafən, şəkil kimi oğlandır. Baxırsan, tamahın qıdıqlanır. Boy-buxun... elə bil iraykom katibidir.

B ə s i r ə. O mütləq burdan getməlidir! İndi çoxları bizə ağzında süd iyi gələn bir uşağa görə hörmət eləyir. Namusu, heysiyyəti olan adama başqasının adı, şöhrəti lazım deyil!

H ə s ə n. Sən öləsən, əmim aləmi qarışdırmayıb bir-birinə?

B ə s i r ə. Həsən, ardımca gəl!

Gedirlər. Mərdan gəlir.

M ə r d a n. Bu İsrafili dilə tutub beş-on gün də burada saxlaya bilsəydim, Bəsirənin hirsi soyuyardı. *(Təzə tikilmiş binaya baxır.)* Öz aramızdır, elə vaxtında tikdirib qurtardım bu binanı. Yoxsa, felyetondan sonra bunu başa vura bilməyəcəkdim. Indi arada Rəsulzadə olanda kim mənə nə deyəcək? İsrafil də burada qalan deyil. Evləndimi, qızı aparacaq Bakıya. Bu mülk hər zaman puldur... *(İsrafil gəlir.)* Qadası, bayaq dədən zəng çalmışdı. Belə bilirəm işin nə yerdə olduğundan duyuq düşüb.

İ s r a f i l. Hansı işin?

M ə r d a n. Əşi, səninlə Şəlalənin əhvalatından da..

İ s r a f i l. Mərdan əmi, sizdən çox təvəqqe edirəm, hələlik bu məsələnin üstünü açmayın.

M ə r d a n. Qadası, gec –tez bu məsələnin üstü də açılacaq, altı da. *(Binanı göstərir.)* bu boyda zurnapeti görmürlər? Bilmirlər sizə bağışlayacağam? Mənim Şəlalədən savayı kimim var?

İ s r a f i l. Xətrinizə dəyməsin, eşitmişəm siz bir az qırdı-qaçdı adamsız. Deyirlər məndən qabaq da Şəlaləni Bakıdan bir oğlan istəyib. Əvvəl razı olmusuz, sonra dəbbələmisiz.

M ə r d a n. Doğrudur, Amma, ay qadası, in koça, on koça – o hara, sən hara.

İ s r a f i l. Axı, o oğlam kimdi, nəçiydi?

M ə r d a n. Ə, tüllübın biri! Kələntərzadə! Mərdüməzarın dal ayağı. Yenə yadıma saldın, qanım qaraldı.

İ s r a f i l. Mən necə arxayın ola bilim ki, siz bu dəfə öz sözünüzün üstündə duracaqsınız?..

M ə r d a n. Qadası, mən boyda kişiyə inanmırsan?!

İ s r a f i l. Necə deyim... Düzünə qalsa, yox. Arada sizin rəsmi razılığınız olmalıdır.

M ə r d a n. Başa düşmürəm, rəsmi razılıq deyəndə, yəni sənə dilimdən iltizamnamə verməliyəm?

İ s r a f i l. Bəli. Bir parça kağız. İndi adamlardan çox kağıza inanırlar.

M ə r d a n. Sən nə istəyirsən yaz, mən qol qoyum.

İ s r a f i l. Xeyr. Öz dəsti-xəttinizlə. *(Kağız qələm çıxarıb ona verir.)* Buyurun. *(Mərdan düşünür.)* Çətinlik çəkirsiz, kömək edə bilərəm.

M ə r d a n. Hə ürəyindən keçir, de gəlsin

İ s r a f i l. Yaz: Mən, Mərdan Daşdəmirov, qızım Şəlaləni İsrafilə...

M ə r d a n. İsrafil Rəsulzadəyə...

İ s r a f i l. Rəsulzadə yazmayın

M ə r d a n. Niyə?

İ s r a f i l. Mən pasportda familsiz gedirəm.

M ə r d a n. Ay qadası, sənin yaraşığın elə o Rəsulzadə idi, onu da ixtisara salmısan?

İ s r a f i l. Qızım Şəlalənin İsrafil Camal oğluna getməsinə razıyam və heç vaxt da bu fikirdən dönməyəcəyəm.

M ə r d a n. *(Gülür).* Yadıma bilirsən nə düşdü? Məşədi İbadla Sərvərin əhvalatı. Fərq təkcə burasındadır ki, onlardan biri razı idi, biri yox. amma biz ikimiz də razıyıq. Yazdım.

İ s r a f i l. *(kağızı alır.)* Hə... İndi arxayın oldum.

M ə r d a n. Məni demirsən ürəyim buz kimi sərinləndi. Ancaq qoy hələlik Bəsirə bunu bilməsin. O, bu məsələyə bir az pəl vurur. Arvaddı da əvvəlcə atılıb-düşəcək, sonra rahətlukum kimi yumşalacaq.

Şəlalə qaça-qaça gəlir.

Ş ə l a l ə. *(İsrafilə).* Indicə anam bağçaya gəlmişdi. Səni xəbər alırdı. Bilmirəm nə eşidib, hirsindən dili-dodağı əsirdi.

Bəsirə Həsənlə daxil olur.

B ə s i r ə. Hə... yaxşı ki, elə üçünüzü də bir yerdə tutmuşam! *(İsrafilə.)* Qonağa üz verərsən, malına ortaq çıxar. Dayın Rəsulzadədir, hər kimdir, mənə dəxli yoxdur. Nə qədər ki, gec deyil...

Tez ol yığış, get evinizə,
Sən qonaq yox, bir cəncəlsən!
Dağıdaram mən aləmi,
Bu yanlara bir də gəlsən!

Ürəyimi alışdırdın,
Düz işləri qarışdırdın.
Şəlaləni sən çaşdırdın,
Gör nə sayaq bəd əməlsən!

Başımızdan çək xatanı,
Oyatma gəl hər yatanı.
Bəsirəni yaxşı tanı,
Mən bilirəm nə əngəlsən!

Ş ə l a l ə. Ana, sən neyləyirsən?!

M ə r d a n. Bəsirə, nə danışdığını bil!

İ s r a f i l. Axı, bir deyin görək nə olub? Mən nə qəbahət işlətmişəm, Bəsirə xala?

B ə s i r ə. Qəbahətin odur ki, gözlə-qaş arasında qızı aldadıb yoldan çıxardın. Indi də Şəlaləni istəyən oğlan əli tapançalı rayonun küçələrində gəzir.

H ə s ə n. Doğru deyir də, treti lişnidir.

Ş ə l a l ə. Ana, mən başa düşmürəm sən hansı oğlanı deyirsən, tapança nədir?!

İ s r a f i l. Bəsirə xala təmamilə haqlıdır.

M ə r d a n. İsrafil heç yana getməyəcək.

B ə s i r ə. Mən də qızımı ona verməyəcəyəm!

M ə r d a n. İndi ki, söhbət o əndazəyə qalxdı, qoy Şəlalə özü desin, kimi istəyir.

H ə s ə n. Hə, bax düzü budur.

B ə s i r ə. O ağlını itirib, nə elədiyini heç özü də anlamır.

M ə r d a n. Qizim, sən ananın hədə-qorxusuna fikir vermə. Burda özgəsi yoxdur. Düzünü de, İsrafili istəyirsən, ya o əvvəlki oğlanı?

Ş ə l a l ə. Bunu.

M ə r d a n. Gördün? Daha nə sözün?! Uşağı zorla başqasına verməyəcəksən ki!

İsrafil Şəlaləyə nəsə pıçıldayır.

B ə s i r ə. Qızım, bax... ağlını başına yığ. Nə atanın, nə mənim - ürəyinin səsinə qulaq as. Bu İsrafilin sənə xəlvətdə dediklərini də yaddan çıxar. Bir kəlmə düzünü söylə: onu istəyirsən, bunu?!

Ş ə l a l ə. Elə ikisini də...

B ə s i r ə. Nə dedin?!

H ə s ə n. Sən ölməyəsən, Laləzarın nəfəsi rayonun havasını tamam korlayıb!

Ş ə l a l ə. Çaşdım ana, onu, onu...

B ə s i r ə. *(ərinə.)* Eşitdin?! Sabah yox, birisi gün qızın elçiləri təzədən gələcək, nişan gətirəcəklər.

M ə r d a n. Dəxli mətləbə yoxdur! Mən İsrafilə öz razılığımı vermişəm!

İ s r a f i l. Mərdan əmi, mübahisə etməyin. Mənə hər şey aydındır.

B ə s i r ə. Onda xoş getdin! *(Çamadanı İsrafilə tərəf itələyir. Şəlalənin əlindən tutub onu aparır.)*

H ə s ə n. Mən dedim də, treti lişnidir. *(Gedir.)*

M ə r d a n. Sənin məhəbbətindən heç baş açmıram, Şəlalə, bu nə iş idi tutdun?

İ s r a f i l. *(şən bir tərzdə).* Mərdan əmi, mən gedirəm! Siz əsla narahat olmayın. Şəlaləyə o cür cavab verməyi mən öğrətdim, hər şey yenə bizim xeyrimizədir!

M ə r d a n. Mənim də!

İ s r a f i l. Sənin də!

M ə r d a n. Heç nə anlamıram.

İ s r a f i l. Birisi gün mən də öz elçilərimi göndərəcəyəm! Görək hansımız qalib gələrik!

M ə r d a n. *(şadlıqla gülür).* Ha...ha...ha...
Uşaq zadam mən məgər,
Yaxşıca düşdüm başa,
Ha...ha...ha...

İ s r a f i l. İstəmərəm Mərdanın
Gülləsi getsin boşa,
Ha...ha...ha...

M ə r d a n. Arxayın etdin məni,
Ay qadası, min yaşa
Ha...ha...ha...

B i r l i k d ə. Qoy o biri elçilərin,
Oxları dəysin daşa.
Ha...ha...ha...

## YEDDİNCİ ŞƏKİL

Təzə evin eyvanında stol açılmışdır. Divarda Rəsulzadənin fotoşəkli asılıb. Mərdan şəklə müraciətlə danışır.

M ə r d a n. Bir-iki saatdan sonra şəxsən sizinlə görüşmək xoşbəxtliyi təzədən mənə nəsib olacaq. Sabah bütün rayon məni barmaqla göstərəcək. Mərdan kişi yoldaş Rəsulzadə ilə qohum olub, deyəcəklər. Eh... Lətifəsi özümə gəlməsin, arxalı köpək qurd basar, deyiblər. *(Gülür.)* Bilirsiz niyə gülürəm, yoldaş Rəsulzadə? Bizim bu səfeh arvad da elə bilir ki, Şəlaləyə elçi o biri oğlan tərəfindən gələcək. Ay-hay!.. Bəsirə! Bəsirə!.. *(Bəsirə gəlir.)* Hə, axır hikkəni yeritdin?!

B ə s i r ə. Nə demək istəyirsən?

M ə r d a n. Qızı verirsən də o tüllab oğlana?

B ə s i r ə. Təhqirlə danışma, Bəli! Bu Şəlalənin öz arzusudur.

M ə r d a n. O boyda yoldaş Rəsulzadə getdi işinin dalınca, hə?
B ə s i r ə. Mərdan, gəl bu gün evə qanqaralıq salma.
M ə r d a n. Qız necə, bu dəfə fikrini dəyişməyəcək?

Şəlalə gəlir.

Ş ə l a l ə. Arxayın ol, ata. Ancaq qorxuram yenə sən dediyinin dalından qaçasan.
M ə r d a n. Kişi tüpürdüyünü yalamaz.

Həsən gəlir.

H ə s ə n. Gözünüz aydın, klubu boşaltdılar!
M ə r d a n. Necə?
Ş ə l a l ə. Kim boşaltdı?
H ə s ə n. Dünən başılovlu girdim mədəniyyət şöbəsinə. Dedim, a kişilər, xəbəriniz var məsələdən: klubumuz işləmədiyi üçün Rəsulzadənin bacısı oğlu rayonumuzdan yaman narazı getdi. Axşamacan içərisini boşaltdılar, silib-süpürüb açarlarını verdilər mənə.
M ə r d a n. *(Bəsirəyə).* Görürsən! Bunlar hamısı sənin bəyənmədiyin o Rəsulzadənin zəhmindəndir.
B ə s i r ə. Vəzifə adamlarının zəhmi acizləri qorxudar.

Bəsirə Şəlalənin qolundan tutub aparır.

H ə s ə n. Əmi, ancaq, heyif, heyif, Bəsirə, Rəsulzadədən əlimizi üzdü. O kişinin bizlərə çox xeyri dəyəcəkdi.
M ə r d a n. Ə, daha səsə salma. Qızı elə onun oğluna verirəm də.
H ə s ə n. Necə?! Necə?!
M ə r d a n. Hə... İsrafilə. Işi çox ustalıqla qurmuşuq. Bəsirə bir vədə ayılıb görəcək Rəsulzadəyə qohum olmuşuq. Ha... ha... ha... ha...
H ə s ə n. Afərin, əmi. Ta sənə sözüm yoxdur!

Eyvana qalxırlar. Mərdan Rəsulzadənin şəklini yerində görməyib təəccüblənir.

M ə r d a n. Ə, bəs bu nə oldu?! *(Şəkli tapıb divardan asır.)* O Bəsirədən nə desən çıxar! Sənin bu əmin arvadı xeyrini qanan adam deyil, qardaşoğlu...
H ə s ə n. Bəli, əmi.
M ə r d a n. Yəqin bu gün kişi məndən soruşacaq ki, ay Mərdan, sən nə təvəzökar adamsanmış, heç demirsən harada işləmək istəyirsən?! Deyəcəm, siz

bilən məsləhətdir, yoldaş Rəsulzadə. Deyəcək: sən daha mənə elə müraciət eləmə, Yoldaş nədir? Biz qohumuq, qudayıq, canciyərik... Sonra... Sonra səncə o mənə nə qulluq təklif edər, Həsən? Ə, fərsiz, klub müdiri deyilsən, beş dəqiqə Rəsulzadə olub dərdimi soruşsana.

H ə s ə n. *(Rəsulzadənin dili ilə).* Mərdan, səni benzokolona qoydursam, işlərsən?

M ə r d a n. Yox... Oranın iyi, havası xoşuma gəlməz, yoldaş Rəsulzadə.

H ə s ə n. *(öz dili ilə).* Əmi, get. Ordan çopur Xeyrullanın qazandığı pulları balta kəsməz. Bu rayonda iki yağlı yer varsa, biri elə oradır.

M ə r d a n. İstəmirəm. Ayrı yer...

H ə s ə n. Bəs restorana müdir düzəltdirsəm, necədir?

M ə r d a n Yox... Döşümə yatmadı. O mənim adıma layiq deyil.

H ə s ə n. *(öz dili ilə).* Ə kişşi, sən şadlığına şıllaq atırsan. Restoranın müdiri Seyfullanın maaşı vur-tut səksən, doxsan manatdır, di gəl ki, ayağının altında qara “Volqa”sı, beşotaqlı mənzili, iki gözəl –göyçək arvadı.

M ə r d a n. Qardaşoğlu, sən pillə-pillə qalx yuxarı, görək harda dayanarıq.

H ə s ə n. Bəlkə hamamda...

M ə r d a n. *(ona bir qapaz ilişdirir).* Ə, başına yer qəhət oldu?!

H ə s ə n. Əmi, sən Rəsulzadəyə qapaz vurursan?!

M ə r d a n. Döşamə yatmır... Davam elə...

H ə s ə n. Yaxşı, kolxız sədri – bəyənirsən?

M ə r d a n. Ora ağır olar mənimçün.

H ə s ə n. Əmi, gəl, bunasa razı ol. Kolxoz sədri Əmirqulunun həyət-bacasını, var – dövlətini gətir gözünün qabağına, hələ üstəlik adı, hörməti...

M ə r d a n. İstəmirəm. Kolxozda pambıq var, plan var...

H ə s ə n. Onda Mərdan kişi, bəlkə özün deyəsən, meylin haradır?

M ə r d a n. *(yazıq-yazııq).* Balaca bir yer var yoldaş Rəsulzadə, mən oranı istəyirəm, böyük univermağa müdir... *(Gülürlər.)* Qardaşoğlu, atamın goru haqqı, Rəsulzadə çox arif adamdır. O dəqiqə başa düşəcək ki, mən bu mülkün tikilməsinə bir ətək pul xərcləmişəm. O boşluğu doldurmağın öhdəsindən ancaq univermaq gələr.

Şəlalə həyətdə görünür. Aşağı enirlər. Qapı döyülür. Laləzar ağlaya-ağlaya gəlir.

M ə r d a n. Madam, niyə ağlayırsan?

L a l ə z a r. Sizin kürəkəniniz bu rayona sağ gəlib, salamat getməyəydi!

Ş ə l a l ə. Nə olub, desənə!

L a l ə z a r.  Daha bundan betər nə olacaq? Neçə gündür ki, bu daşlı-kəsəkli xarabada ömür çürüdürəm. Nə var, nə var, instituta girməyə bir arayış alacaqdım. Onu da ala bilmədim. Qorxurlar sizin İsrafil işdən xəbər tutub Bakıda ağzından söz qaçıdar.

H ə s ə n. Aaz, get gözünün qorasını Bakıda tök, əmim neyləsin!

L a l ə z a r.  *(çığırır).* Sən sus!

H ə s ə n. Qışqırma! Bilirəm, əlimdən yanıqlısan! Sən bura arayış almağa yox, ər axtarmağa gəlmisən. Xam hərif tapmadın.

L a l ə z a r. Farmazon!

H ə s ə n. Karapuzik!

Taxdırma

Laləzar çıxır.

M ə r d a n. Ədə, sən bu taxta iqruşkaya dil vermişdin?! Ay hay! *(Astadan.)* Get, paltarını dəyiş, əməlli geyin, gəl. Qoy Rəsulzadə səni də abırlı bir adam kimi tanısın.

H ə s ə n. *(getmək istəyir, dayanır).* Laləzar bir az uzaqlaşsın sonra.

Azacıq gözləyib gedir. Cahan gəlir.

C a h a n. A başınıza dönüm, işim çətinə düşüb, xahişə gəlmişəm yanınıza. Salam əleyküm.

Ş ə l a l ə.  Salam, nə məsələdir, Cahan xala?

C a h a n. O vədə qardaşım oğlu Dadaşla yoldaşı sizdən çıxandan sonra gecəni bizim evdə yatmışdılar...

M ə r d a n. Dadaş sənin qardaşın oğludur?!

C a h a n. Bəs necə. Dadaşciyəz möhkəm tapşırmışdı ki,  o barədə heç kəsə bir söz deməyim. Dilim dinc durmadı, rayonda cəmisi beş-altı arvada danışdım, bilmirəm. Üstündən neçə gün keçməmiş məni çağırıb mehmanxanaya müdir qodular. Yalvardım, yaxardım, bacarmaram, razılaşmadılar. Dedilər: “Arvad, Rəsulzadənin qohumusan, buçağacan bizdən niyə gizlədirsən? Sənin ən aşağı vəzifən elə mehmanxanada müdirlikdir” And-aman elədim, o kişi ilə heç bir qohumluğum yoxdur, inanmadılar.

Ş ə l a l ə.  *(Gülür).* Ha... ha... ha... ha...

M ə r d a n. Cahan arvad, heç bilirsən Dadaşla sizdə yatan o kişi kimdir?

C a h a n. Hardan biləydim. Amma yaman zarafatcıl adamdı. O gecə səhərə kimi Dadaşla laqqırtı vurub gülürdülər.

M ə r d a n. Daha səsə salma. Pislik eləyiblər sənə?!

Ş ə l a l ə.  Xala, bəs istədiyin nədir?

C a h a n. Deyirəm,atanı başa sal. Məni mehmanxana müdirliyindən götürsün. Barı əvvəlkitək elə təsərrüfat işlərinə baxım.

M ə r d a n. Arvad, sənin başın xarab olub!

C a h a n. Başı xarab olan sənsən! Bu tezliklə şəklimi də rayon mərkəzində şərəf lövhəsindən asdırıblar. Ordan hər keçəndə xəcalətdən ölürəm. *(Evə baxır.)* Mərdan, ciyərli adamsan... Bu boyda imarəti qorxmadın tikdirdin?

Ş ə l a l ə. Cahan xala, o işi mən yoluna qoyaram. Keçək içəri, bir stəkan çay iç.

Keçirlər. Qapı döyülür. Mərdan qapını açanda Rəsulzadə ilə qarşılaşırş

M ə r d a n. *(özünü itirir).* Yoldaş Rəsul...zadə?! Bu sizsiz?! Gözlərimə inanmıram!

R ə s u l z a d ə. Salam!.. Salam!,.

M ə r d a n. Belə əleykəssalam, beş də artıq! *(Görüşürlər.)* Siz malası təzə qurumuş bu evə yüz dəfə xoş gəlib, iki yüz dəfə səfa gətiribsiz!

R ə s u l z a d ə. Görürsən də, cavanlar bizi əziyyətə salıblar.

M ə r d a n. Təki həmişə onların əziyyətini çəkək, yoldaş Rəsulzadə

R ə s u l z a d ə. Xahiş edirəm mənə daha yoldaş demə, Axı, biz artıq qohumuq, qudayıq.

M ə r d a n. Düz buyurursuz. Ancaq neyləyim, dilim öyrəşib.

Bəsirə, Şəlalə, Cahan gəlir. Bəsirə Rəsulzadəni görcək özünü itirir.

Ş ə l a l ə. Ana, sakit ol.

B ə s i r ə. Yenə o niyə gəlib?! Deyin, bu dəqiqə çıxıb getsin!

Rəsulzadənin şəklini çıxarıb yerə çırpır.

R ə s u l z a d ə. Mərdan kişi, elçilərimiz bayırda gözləyirlər. Demək, onların içəri gəlməsin razılıq verirsən?

M ə r d a n. Bizim aramızda bu nə sözdür, yoldaş...

Rəsulzadə çıxır. Mərdan cəld Bəsirənin yanına qaçır.

M ə r d a n. Özünü ələ al!

B ə s i r ə. Mən ona qız verməyəcəyəm!

M ə r d a n. Arvad, toxda!

Şəlalə küçəyə qaçır. Həsən təngnəfəs içəri girir.

H ə s ə n. Əmi, ay əmi. Xəbərin var, elçilər yenə o birinci dəfə gələnlərdir?!

M ə r d a n. Ədə, korsan! Bəs fil boyda Rəsulzadəni görmədin?!

H ə s ə n. Yox, görmədim. O burda yoxdur

"Vağzalı çalınır. Kamal, Nemət, Mürsəl və Dadaş həyətə girirlər.

M ü r s ə l. Keçən gəlməyimizi hesaba almasaq, mən axırıncı kərə on iki il qabaq bu rayonda olmuşam. Pah atonnan! İllərə bax ey!.. elə bil lap srağa gün idi.

M ə r d a n. Çalmayın, saxlayın. Ay camaat, xətrinizə dəyməsin, siz ikinci dəfə bizim qapıya çox nahaq yerə durub gəlmisiniz.

H ə s ə n. Gecikmisiz, bala, gecikmisiz.

M ə r d a n. Biz qızı başqasına vermişik.

B ə s i r ə. *(şən tərzdə).* Çalın, ay camaat, siz ikinci kərə xoş gəlmisiniz Bizim qız sizin oğlanı istəyir. Mən də öz razılığımı vermişəm, evə buyurun.

M ə r d a n. Ə, çalmayın, dayanın! Camaat, siz arvada yox, mənə qulaq asın. Qızım Şələlə, yoldaş Rəsulzadənin oğlu İsrafili sevir. Elçiləri də bayırdadır. *(Şəlalə ilə İsrafili arxada görür.)* Ə, qadası, sən də gəlmisən! Bəs niyə dinmirsən?

İ s r a f i l. Doğru deyirsiz, Mərdan əmi, bu barədə Şəlalə də, Bəsirə xala da, hətta siz də mənə öz razılığınızı vermmisiniz. *(Kağızı çıxarıb ona göstərir.)*

M ə r d a n. Elədir. Axı başa düşə bilmirəm, bunlar niyə durub yortublar bura? Qadası, bəs yoldaş Rəsulzadə necə oldu? Çağır onu içəri.

D a d a ş. Darıxmayın, Mərdan kişi, o da burdadır.

K a m a l. *(irəli çıxır).* Mərdan kişi, Rəsulzadə də mən idim, bəndəyi fəqiriniz aktyor Kamal da mənəm! Israfil isə sizin Şəlaləni doğrudan da əvvəlcədən istəyən qardaşım oğludur.

M ə r d a n. Necə?! Necə?!

K a m a l. Əssalamün və əleyküm, biz həmən elçilərik. Biri Nemət, biri Mersəl, biri mən – üç nəfərik...

M ü r s ə l. Axşamın xeyir ola, Mərdan kişi, kefin necədir? De görək bir bizə əhvalı-şərifin necədir?

B ə s i r ə. *(qəhqəhə çəkir).* Ha... ha... ha... ha... Nə yaxşı oldu!

H ə s ə n. Əmi, bunlar yenə nə teatr çıxardırlar?

M ə r d a n. *(xəstə kimi).* Üzün ağ olsun Şəlalə. Bu nə toydur, mənə qurdunuz?! Hər şey əlimdən çıxacaq. Adına saldırdığım bu imarəti də sabah bizdən alacaqlar.

Ş ə l a l ə. Onsuzda imarət bizimki deyil. Mən onu natariusla öz adımdan çıxartdırıb, uşaq bağçasına versdirmişəm.

M ə r d a n. Həə?!

Yerə çökəndə Həsən onu tutur.

K a m a l. Sağ ol, qızım. Bu binanın hansı pullar hesabına başa gəldiyi hamıya məlumdur!

M ə r d a n. *(zarıyır).* Aman!.. Siz mənə dağ üstdən dağ çəkdiniz.

N e m ə t. Mərdan kişi, əvvəlcədən cığallıq eləməsəydin, axı lap belə də olmazdı.

X O R İnsanları həyatda
Halal zəhmət yaşadır.
Müqəddəsdir bu zəhmət
Onsuz şey acıdır!
İnsanları həyatda
Saf məhəbbət yaşadır.
Müqəddəsdir məhəbbət,
Gözəlliyin tacıdır!

Pə r d ə.